**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ZAUR ƏLİRZA OĞLU MƏMMƏDOV**

# NOTARİAT HƏRƏKƏTLƏRİNİN APARILMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

İxtisas: 5608.01 – Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq

**Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses" şöbəsində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** **Bondarenko Natalya Leonidovna**
hüquq elmləri doktoru, professor

**Moroz Svetlana Pavlovna**
hüquq elmləri doktoru, professor

**Dikovskaya İrina Andreyevna**
hüquq elmləri doktoru, professor

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının "Mülki hüquq" kafedrası**

Dissertasiya işinin müdafiəsi 23 fevral 2016-cı il tarixdə saat 11.00-da Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki FD.01.103 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid pr. 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 21 yanvar 2016-cı il tarixdə göndərilmişdir.

**FD.01.103 Dissertasiya Şurasının**
**elmi кatibi, h.ü.f.d., dosent** **X.Ə.Bayramzadə**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Hüquqi dövlətdə notariatın rolu böyükdür. Avropa Parlamentinin "Avropa Birliyində notariat" adlı 18 yanvar 1994-cü il tarixli Qətnaməsinə əsasən notariat mülki hüquqların və qanunla mühafizə olunan maraqların məhkəmədənkənar müdafiə forması kimi preventiv (xəbərdaredici) ədalət mühakiməsi institutudur.[1] Preventiv ədalət mühakiməsi dedikdə, məhkəmə mübahisələrinin yaranma ehtimalının minimuma enməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının qanunvericiliyinə görə mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsi yalnız məhkəməyə aiddir və məhkəmələr tərəfindən qanunla müəyyən olunmuş qaydada həyata keçirilir. Amma, notarius qanunun aliliyini, ona təqdim edilmiş sənədlər əsasında faktların doğruluğunu və maraqlı şəxslərin hərəkətlərini rəhbər tutaraq mübahisəsiz işləri həll edir, yəni həm notariat, həm də məhkəmə fiziki və hüquqi şəxslərin subyektiv hüquqlarını mühafizə etsə də, notarius məhkəmədən fərqli olaraq mübahisələri araşdırmır, notariat fəaliyyətinin əsasını mübahisəsiz işlər təşkil edir. Başqa sözlə desək, notarius öz mülahizələrini qanunda göstərilmiş sənədlər əsasında və ya bilavasitə heç bir şübhə doğurmayan faktlar əsasında qurur. Tərəflər hər hansı bir məsələ ilə bağlı razılığa gələ bilmədikdə, notarius notariat hərəkətini apara bilməz. Məhz buna görə hüquqtətbiqedici üsul baxımından notariat fəaliyyəti zahirən məhkəməyə oxşayır. Hüquqi tənzimetmədə hüquqi faktlar olan notariat hərəkətləri əmlak dövriyyəsində qanunçuluğun qorunmasına yönəlib və bir qayda olaraq artıq yaranmış mülki hüquq münasibətlərini təsdiqləyir, subyektiv hüquqların realizə edilməsinə, həmçinin qanunda göstərilən hallarda vəzifələrin məcburi icrasına kömək edir.

Layihəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış, 1995-ci il 12 noyabr tarixdə ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin I hissəsinə əsasən hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

Fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli hüquqi yardım göstərilməsində notariat xüsusi çəkiyə malikdir. 26 noyabr 1999-cu il

---

[1] Андре Швахтген. Деятельность нотариуса на благо гражданского общества. http://www.mirnot.narod.ru/shva.html

tarixdə “Notariat haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Azərbaycan Respublikasında rəsmi və doğru sənədlərin tərtibi üçün hüquqların, hüquqi əhəmiyyətli faktların təsdiqi, habelə digər notariat hərəkətlərinin aparılması notariat fəaliyyətinə məxsusdur və belə fəaliyyət yalnız “Notariat haqqında” AR Qanunu ilə müəyyən edilmiş qaydada və nəzərdə tutulmuş şəxslər tərəfindən həyata keçirilə bilər.

Notariat fəaliyyətinin nəzəri və praktiki aspektlərinin öyrənilməsinin zəruriliyi səbəbindən 2011-ci ilnin fevral ayından başlayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsində “Notariat hüququ” adlı fənnin tədrisinə başlanılmışdır.

Aparılan notariat hərəkətlərinin sayı ilbəil artır. 2009-cu ildə Azərbaycan Respublikasının notariat kontorları tərəfindən təxminən 2,5 milyon notariat hərəkəti rəsmiləşdirildiyi halda, 2012-ci ilin təkcə 10 ayı ərzində 3,4 milyondan çox notariat hərəkəti aparılmışdır. Bundan başqa, 2012-ci il ərzində vətəndaşlara 500 mindən çox şifahi məsləhətlər verilmişdir. Rəsmiləşdirilən notariat hərəkətlərinin əksəriyyətini surət və imza təsdiqi təşkil edir. Sovet dövründən qalmış əmanətlərə verilən vərəsəlik hüququ haqqında şəhadətnamələrin sayı ən azı 10 dəfə artmışdır. Azərbaycan Respublikası Mərkəzi Bankının hesabatına əsasən 2012-ci il dekabr ayının 1-nə kimi notariat kontorları vasitəsilə daşınmaz əmlakla bağlı əməliyyatların dövriyyəsi 2 milyard 521,579 milyon manat olmuşdur.[2]

Müsbət haldır ki, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən “ASAN xidmət”

[2]В Азербайджане увеличились операции с недвижимостью. http://1news.az/economy/20130113033133160.html

mərkəzləri yaradılması haqqında 13 iyul 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Fərman imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli Fərmanına uyğun olaraq "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən bir sıra xidmətlər, o cümlədən notariat fəaliyyəti həyata keçirilir.

Qüvvədə olan qanunvericiliyə əsasən notariuslar vərəsəlik hüququ haqqında şəhadətnamələr verir, müqavilələri, etibarnamələri, vəsiyyətnamələri, sənədlərdəki imzaların həqiqiliyini, sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü təsdiq edir və s. notariat hərəkətlərini rəsmiləşdirirlər. Lakin, notariat hərəkətlərinin aparılması, notariusun məsuliyyəti ilə bağlı qanunvericilikdə bir sıra problemlər mövcuddur. Qeyd edilənlər dissertasiya mövzusunun aktuallığını müəyyənləşdirmiş, onun tədqiqat obyekti kimi seçilməsini şərtləndirmişdir.

**Tədqiqat mövzusunun elmi işlənmə dərəcəsi.** SSRİ dağıldıqdan sonra MDB ölkələrindən Rusiya Federasiyasında və Ukraynada notariat fəaliyyətinin müxtəlif istiqamətlərinin tədqiqinə xüsusi diqqət yetirilir. Belə ki, V.S. Repinin, V.V. Ralkonun, S.Y.Fursanın, İ.V.Moskalenkonun, İ.Q.Çeremnıxın, Y.İ.Qolovinin, A.Y. Qryadovun, İ.A. Kosaryovanın, T.Y. Alyoşinanın,S.V. Malçevanın, A.Q. Nuriyevin İ.A. Alfyorovun, O.M. Sıçevin, L.L. Birçenkonun, O.V.Filippovanın, Q.V.Fadeyevanın, Y.N. Mizinsevin, Y.A.Andreyevanın və başqa alimlərin bu istiqamətdə apardığı tədqiqatlar yüksək elmi dəyəri ilə diqqəti cəlb edir.

Azərbaycan hüquqşünaslarından V.V. Nəsirov və G.İ. Məsimova tərəfindən də notariatla bağlı müəyyən araşdırmalar aparılmışdır. Buna baxmayaraq, notariat hərəkətlərinin aparılmasının təkmilləşdirilməsi problemləri heç vaxt müstəqil kompleks monoqrafik tədqiqatın predmeti olmamışdır.

**Tədqiqatın obyektini** notariatın, o cümlədən Azərbaycanda notariatın yaranması, inkişafı, notariat hərəkətlərinin aparılmasının təkmilləşdirilməsi və notariusun məsuliyyəti problemlərinin kompleks şəkildə tədqiqi təşkil edir.

**Tədqiqatın predmetini** notariat hərəkətlərinin aparılması ilə bağlı nəzəriyyədə və təcrübədə meydana çıxan məsələlər təşkil edir.

**Tədqiqatın emprik bazasını** notariat fəaliyyətini tənzimləyən kompleks hüquq normaları təşkil edir. Dissertasiyada beynəlxalq konvensiyalar, xarici ölkələrin qanunvericiliyi, Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikası Prezidentinin Fərmanları, Nazirlər Kabinetinin Qərarları, Ədliyyə Nazirliyinin əmrləri təhlil edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi Azərbaycan Respublikasında notariat fəaliyyətinin həyata keçirilməsi ilə bağlı problemlərin, o cümlədən notariat hərəkətlərinin aparılması problemlərinin kompleks şəkildə tədqiq edilməsi, notariat institutunun daha da təkmilləşdirilməsi mexanizminin müəyyən olunması və həmin problemlərin həllinə yönəlmiş təklif və tövsiyələrin verilməsindən ibarətdir.

Göstərilən məqsədlərə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Azərbaycanda notariatın yaranması və inkişafı tarixini araşdırmaq;
- notariat hərəkətlərinin Azərbaycan Respublikasının adından aparılmasının məqsədəuyğunluğunu əsaslandırmaq;
- yalnız hüquq üzrə magistr dərəcəsinə və yaşı 30-dan aşağı olmayan Azərbaycan Respublikası vətəndaşlarına dövlət və ya xüsusi qaydada notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamənin verilməsinin zəruriliyini əsaslandırmaq;
- notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamənin verilmə qaydasını təhlil etmək;
- xüsusi notariusla yanaşı, ilk dəfə notarius kimi fəaliyyətə başlamazdan əvvəl, dövlət notariusunun da and içməsinin məqsədəmüvafiqliyini əsaslandırmaq;
- xüsusi notariusların fəaliyyətinə daha səmərəli nəzarət etmək üçün notariat palatasının yaradılmasının məqsədəuyğunluğunu əsaslandırmaq;
- bir il ərzində 30 mindən çox notariat hərəkətini rəsmiləşdirmiş notariusun fəaliyyətinin ildə bir dəfədən az olmayaraq yoxlanılmasının zəruriliyini əsaslandırmaq;
- gələcəkdə yarana biləcək hər hansı mübahisələr zamanı notariusun məsuliyyət daşıyıb-daşımadığını dəqiq müəyyən etmək məqsədilə notariusun iş otağında və ya kontordan kənarda aparılan bütün notariat hərəkətləri prosedurunun videokamera vasitəsilə qeydiyyata alınması və elektron daşıyıcılara yazılmış videogörüntülərin

daimi saxlanılmasının məqsədəmüvafiqliyini əsaslandırmaq;

- xüsusi notariusun işinin təşkilini təhlil etmək;
- notariat hərəkətlərinə görə dövlət rüsumunun ödənilməsi qaydasının təkmilləşdirilməsinin məqsədəmüvafiqliyini göstərmək;
- nikah müqaviləsi təsdiqləndikdən sonra notariusun texniki vasitələrdən istifadə etməklə müqavilənin təsdiq edilməsi barədə məlumatı dərhal müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə) göndərməsinin məqsədəuyğunluğunu göstərmək;
- bir və ya bir neçə şəxs adından bir və ya bir neçə şəxsin adına verilən etibarnamənin notariat qaydasında təsdiqi xüsusiyyətlərini araşdırmaq;
- fiziki şəxs əmlaka, o cümlədən daşınmaz əmlaka və nəqliyyat vasitələrinə sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə verdikdə, həmin şəxsin subay və ya evli olmasının, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 365.1.3; 365.1.7 və 365.2-ci maddələrinin məzmununun etibarnamədə göstərilməsinin məqsədəmüvafiqliyini əsaslandırmaq;
- daşınmaz əmlaka və nəqliyyat vasitələrinə sərəncam vermə hüququnu nəzərdə tutan, həmçinin 3.000 (üç min) manatdan yuxarı pulun alınması üçün verilən etibarnamələr təsdiq edilərkən etibarnamənin üz tərəfinin yuxarı sol küncündə etibarnamə vermiş şəxsin (şəxslərin) 30x40 mm ölçüdə rəngli fotoşəklinin (fotoşəkillərinin) yapışdırılmasının zəruriliyini göstərmək;
- üzərinə qadağan və ya həbs qoyulmuş əmlaka vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsini qadağan və ya həbs götürülənədək dayandırılmasının məqsədəuyğunluğunu əsaslandırmaq;
- sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünün, imzanın həqiqiliyinin və tərcümənin düzgünlüyünün notariat qaydasında təsdiqlənməsini tədqiq etməklə onların təkmilləşdirilməsi istiqamətlərini göstərmək;
- daşınmaz əmlak üzərində sərəncam verilməsi ilə bağlı notariat qaydasında təsdiq edilən müqavilələr üzrə iyirmi min manatdan artıq vəsaitin tərəflərdən birinin digərinə ödəməsinin tərəflərin qarşılıqlı razılığı ilə satıcının bank hesabı və ya notariusun bankda açdığı depozit hesabı vasitəsi ilə həyata keçirməsinin məqsədəmüvafiqliyini əsaslandırmaq;
- yetkinlik yaşına çatmayanın tam fəaliyyət qabiliyyətli sayılması (emansipasiya) haqqında qərar qəbul etmiş orqanın texniki

vasitələrdən istifadə etməklə dərhal bu barədə məlumatı, həmçinin nikah yaşının azaldılmasına icazə vermiş orqanın nikah yaşı azaldılmış şəxslər barədə məlumatı müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə) göndərməsinin məqsədəuyğunluğunu əsaslandırmaq;

- əqdlərdə təmsilçilik məsələlərini tədqiq etməklə, onların təkmilləşdirilməsi üçün ən əlverişli variantları müəyyənləşdirmək;
- daşınmaz əşyaların alqı-satqı müqaviləsinin rəsmiləşdirilməsi xərclərini aydınlaşdırmaq;
- Azərbaycan Respublikası Mülki Məcəlləsinin "Birgə vəsiyyətnamə" adlanan 1169-cu maddəsini təhlil etməklə, həmin maddənin məzmununun təkmilləşdirilməsinin məqsədəmüvafiqliyini göstərmək;
- vəsiyyətnamə ilə bağlı mülki qanunvericilikdə öz əksini tapmış normaları təhlil etməklə, onların təkmilləşdirilməsinin vacibliyini diqqətə çatdırmaq;
- miras qoyanın yalnız yetkinlik yaşına çatmayan və ya əmək qabiliyyəti olmayan uşaqlarına, əmək qabiliyyəti olmayan ərinə (arvadına) və valideynlərinə vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi pay verilməsinin və bu payın qanun üzrə vərəsəlik zamanı onlara çatası payın üçdə iki hissəsindən az olmayan hissəsini (məcburi pay) təşkil etməsinin məqsədəuyğunluğunu əsaslandırmaq;
- vərəsəliyin qəbulu və vərəsəlikdən imtina məsələlərini təhlil etməklə, onların təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsinə "Vərəsəlik müqaviləsi" adlı 75-ci fəslin əlavə edilməsinin məqsədəmüvafiqliyini əsaslandırmaq;
- "Vəsiyyətnamələrin qeydiyyat sisteminin tətbiqi haqqında" 16 may 1972-ci il tarixli Bazel Konvensiyasına Azərbaycan Respublikasının qoşulmasının zəruriliyini əsaslandırmaq;
- ər-arvadın ümumi əmlakının bölünməsi haqqında sazişin yalnız yazılı formada tərtib edilərək notariat qaydada təsdiqləndikdə etibarlı sayılmasının qanunvericilikdə təsbit olunmasının məqsədəmüvafiqliyini göstərmək;
- Azərbaycan Respublikasının Ailə Məcəlləsində alimentlə bağlı mövcud normaları təhlil etməklə, onların təkmilləşdirilməsinin vacibliyini göstərmək;

- “Daşınmaz əmlakın dövlət reyestri haqqında” 29 iyun 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin edılməsinin, o cümlədən daşınmaz əmlakın təsvirini, dövlət qeydiyyatına alınmış hüquqları və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışın notariusun texniki vasitələrdən istifadə etməklə verdiyi sorğu əsasında notariusa göndərilməsinin məqsədəuyğunluğunu əsaslandırmaq;

- “Dövlət rüsumu haqqında” 4 dekabr 2001-ci il tarixli Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş daşınmaz əmlakın özgəninkiləşdirilməsi, mənzil sahələrinin və bağ evlərinin müvəqqəti istifadəyə verilməsi barədə müqavilələrin, həmçinin alimentin ödənilməsi barədə sazişin təsdiqi üçün tutulan dövlət rüsumlarını təhlil etməklə, onların təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”a əlavə və dəyişikliklərin edilməsinin məqsədəmüvafiqliyini əsaslandırmaq.

**Tədqiqatın metodoloji və nəzəri əsasları.** Tədqiqat işi yazılarkən ümumhüquqi metodlardan – sistemli təhlil, normativ, elmi və praktik materialların ümumiləşdirilməsi, tarixi yanaşma, xüsusi elmi metodlardan – müqayisəli hüquqşünaslıq, məntiqlilik və texniki-hüquqi metodlardan, o cümlədən qeyri-hüquq elmləri üçün səciyyəvi olan sosioloji sorğu, statistik təhlil və s. metodlardan istifadə edilmişdir. Tədqiqat işində nəzəri və emprik məsələlər, həmçinin informasiyalar uzlaşdırılmış şəkildə təhlil edilmişdir.

Tədqiqat işinin nəzəri əsasını V.V. Yarkov, V.S. Repin, İ.F.Piepu, Y.B. Tarbaqayeva, Q.Q. Çeremnıx, İ.Q. Şeremnıx, J. Yaq, İ.V. Moskalenko, V.V. Ralko, O.M. Sıçov, İ.A. Kosaryova, S.N. Bondov, O.Y. Blinkov, Y.N. Vlasov, İ.A. Zenin, Y.V. Qolovizina, V.V. Kalinin, Y.A. Çevranova, İ.Q. Medvedyev, O. V. Kapitova, T.M. Şamba, A.A. Solovyov, İ.A. Kiselyov, O.M. Tolstikova, A.M. Sumin, V.N. Kokin, O.A. Ulyanenko, V.N.Yakovlev, J.R. Riçfol, S.V.Malçeva, A.Q. Nuriyev, M.K. Treuşnikov, S.Y. Fursa, Y.L. Skoblikova, T.Y. Alyoşina, A.Q. Oleynova, V.A. Ryasentsev, S.S. Alekseyev, V.N. Arqunov, M.N. Antokolskaya, M.D. Dəmirçiyeva, M.S. Xələfov, Ə.İ.Əsədov, Q.İ.Manayev, A.M. Qasımov, M.F.Məlikova, X.C. İsmayılov,

Z.M.Bünyadov, N.H.Cəfərli, Z.H.Bayramlı, R.A.Əkbərov, S.M. Səlimov, S.N.Qaşqay, İ.B. Əhmədov və digər alimlərin əsərləri təşkil edir.

Dissertasiyanın hərtərəfli tədqiqi üçün Azərbaycan Respublikası Milli Arxiv Fondunun sənədlərindən, Azərbaycan Respublikasında sovet və postsovet dövründə qəbul olunmuş hüquqi aktlardan, məhkəmə və notariat təcrübəsindən, həmçinin, xarici ölkələrin (əsasən MDB-nin üzvü olan dövlətlərin) notariat fəaliyyətini tənzimləyən qanunvericilik aktlarından geniş şəkildə istifadə olunmuşdur.

Müəllifin praktik elmi fəaliyyəti, AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses" şöbəsində tədqiq etdiyi notariat fəaliyyətinin müxtəlif aspektlərinə dair araşdırmalar (2007-ci ildən), topladığı materiallar, ümumiləşdirmələr və təhlillərdən istifadə etməsi də bu sahədə mühüm rol oynamışdır.

**Dissertasiya işinin elmi yeniliyi** onunla müəyyən edilir ki, o, Azərbaycanda notariatın inkişaf mərhələlərinə, notariat hərəkətlərinin aparılmasının təkmilləşdirilməsi problemlərinin kompleks şəkildə tədqiqinə həsr olunmuş monoqrafik xarakterli ilk elmi tədqiqat işidir.

Nəzəri mənbələrin və empirik materialların kompleks təhlilini rəhbər tutan müəllif yenilik elementi kimi bir çox anlayışları və nəticələri işləyib əsaslandırır, notariat fəaliyyəti üçün mühüm əhəmiyyətə malik olan bir sıra aktual məsələlərin həllinin yeni qaydalarını təklif edir.

Tədqiqatın elmi yenilikləri dissertasiyanın aşağıda şərh edilən **müddəalarında** əks olunur:

1. Eramızdan əvvəl I minilliyin əvvəllərindən Azərbaycanda mülki-hüquqi əqdləri mirzələr (katiblər), VII əsrdə islam dini Azərbaycanda hakim dinə çevrildikdən sonra isə qazılar tərtib edirdilər. Bu dövrdə vəsiyyətnamə, etibarnamə, alqı-satqı, borc, kirayə, icarə, bağışlama, dəyişmə, girov, tapşırıq, nikah, zaminlik, yoldaşlıq, şirkət və razılaşma kimi əqdlər təsdiq edilirdi. VIII-XIX əsrlərdə qazılar tərəfindən təsdiq edilən mülki-hüquqi əqdlər ilə, hal-hazırda notariuslarin apardıqları notariat hərəkətləri arasında müəyyən oxşarlıqların olması qeyd edilir. Şimali Azərbaycanın çar Rusiyasının tərkibinə qatılmasından sonra notariat hərəkətlərinin aparılmasının dairə məhkəmələrinin, qəza məhkəmələrinin, barışıq məhkəmələrinin və kənd məhkəmələrinin səlahiyyətində olması, 14 aprel 1866-cı ildə Rusiyada "Notariat sahəsi haqqında" Əsasnamə qəbul edildikdən sonra Azərbaycanda ilk notarius kontorlarının, o cümlədən 1968-ci ildə Bakıda, Yelizavetpolda və Şuşada xüsusi notarius kontorlarının

fəaliyyətə başlaması açıqlanır.

2. XIX əsrin sonu XX əsrin əvvəllərində notarius vəzifəsinin çox nüfuzlu vəzifə sayılması, kargüzarlığın rus dilində aparılması, notarius vəzifəsinə qeyri-azərbaycanlıların təyin edilməsi, Azərbaycan Demokratik Respublikasının dövründə notariuslarin 1918-ci il mayın 28-nə kimi təsdiq etdikləri notariat aktlarının öz hüquqi qüvvəsini saxlaması, həmçinin əvvəllər fəaliyyət göstərmiş həm məhkəmələrin tərkibində olan notarius kontorlarının, həm də xüsusi notariusların ADR-in dövründə də fəaliyyətlərini davam etdirmələri, Azərbaycan Sovet Sosialist Respublikası elan edilənə kimi Azərbaycanın notariat sisteminin inkişaf etmiş əksər xarici ölkələrin notariat sistemindən fərqlənməməsi və notariusların təsdiq etdiyi sənədlərin bütün xarici ölkələrdə qəbul olunması, 1920-ci il aprel inqilabından sonra isə Azərbaycanda notariatın hüquqi statusunun köklü surətdə dəyişərək nüfuzsuz bir orqana çevrilməsi göstərilir.

3. XX əsrin 70-ci illərindən etibarən notariat kontorları tərəfindən aparılan notariat əməliyyatlarının sayının ilbəil artmağa başlaması, həmçinin notariat orqanlarının malik olduğu funksiyaların genişlənməsi, 1989-cu ildə mənzillərin özəlləşdirilməsinə start verilməsindən sonra mənzilin şəxsi mülkiyyət hüququnun obyektinə çevrilməsi ilə notariat əməliyyatlarının sayının sürətlə artması, Azərbaycan Respublikasında 1995-ci ildən qeyri-yaşayış sahələrinin, həmçinin torpaq sahələrinin özəlləşdirilməsinə başlanılması ilə isə fiziki və hüquqi şəxslərin mülkiyyətində yeni növ daşınmaz əşyaların yaranması nəticəsində notariat əməliyyatlarının sayının daha da artması açıqlanır.

4. SSRİ dağıldıqdan sonra SSRİ-nin tərkibində olmuş keçmiş müttəfiq respublikaların tədricən "Notariat haqqında" Qanunlarını qəbul etmələri, 1999-cu il noyabrın 26-da AR Milli Məclisi tərəfindən qəbul olunan müstəqil Azərbaycan Respublikasının "Notariat haqqında" Qanununun 30 yanvar 2000-ci il tarixdə "Azərbaycan" qəzetində dərc olunaraq qüvvəyə minməsi, bu Qanunda ilk dəfə olaraq dövlət vasitəsilə notariat fəaliyyətinin həyata keçirilməsi ilə paralel, xüsusi qaydada notariat fəaliyyətinin həyata keçirilməsinin də nəzərdə tutulması, Azərbaycan Respublikasında xüsusi notarius kimi fəaliyyət göstərmək istəyənlərə ilk şəhadətnamənin 2010-cu ilin avqust ayında verilməsi qeyd olunur. Notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə fiziki və hüquqi şəxslərin inamının artırılması məqsədilə "Notariat haqqında" 26 noyabr 1999-cu il tarixli AR Qanununun

“Azərbaycan Respublikasında notariat” adlanan 1-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissənin əlavə edilməsinin məqsədəuyğunluğu əsaslandırılır: “Notariat hərəkətlərini aparmağa müvəkkil edilmiş şəxslər notariat hərəkətlərini Azərbaycan Respublikasının adından aparırlar”.

5. “Notariat hüququ” adlı tədris fənninin inkişafına ehtiyac vardır. “Notariat hüququ” fənninin “Mülki hüquq” və “Mülki proses” fənlərinə yaxın olduğunu və hüquq fakültələrinin bakalavriat pilləsinin 2-ci və 3-cü kurslarında “Mülki hüquq”un ümumi və xüsusi hissəsinin, həmçinin “Mülki proses”in tədris olunduğunu nəzərə alaraq, hüquq fakültəsi olan bütün ali təhsil müəssisələrinin bakalavriat pilləsinin dördüncü kursunda “Notariat hüququ” adlı fənnin tədris edilməsinin zəruriliyi əsaslandırılır.

6. Sovet İttifaqı dövründə müttəfiq respublikaların vərəsəlik qanunvericiliyi demək olar ki, bir-birindən fərqlənməsə də, hal-hazırda Müstəqil Dövlətlər Birliyi ölkələrinin vərəsəlik qanunları bir-birindən müəyyən qədər fərqlənir. Bütün MDB ölkələrində vərəsəliklə bağlı normalar Mülki Məcəllədə öz əksini tapmışdır. Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin vərəsəliklə bağlı hüquq normaları, o cümlədən vərəsəliyin qəbulu və vərəsəlikdən imtina müddəti, vəsiyyətnamə təsdiqi, vərəsəlikdə məcburi pay, notariat qaydasında qanun və vəsiyyət üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsi məsələləri müqayisəli şəkildə təhlil edilir. Yalnız Ukraynanın Mülki Məcəlləsində vərəsəlik müqaviləsinin bağlanmasının mümkünlüyünün təsbit olunması açıqlanır.

7. “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda öz əksini tapmış “Notariusun maddi məsuliyyəti” adlı 11-ci maddənin məzmununun onun adına uyğun gəlməməsi göstərilir və notarius yalnız maddi deyil, hüquq pozuntusunun xarakterindən asılı olaraq eyni zamanda – intizam, inzibati, maddi, mülki və cinayət məsuliyyəti daşıdığı üçün həmin maddənin adının və məzmununun dəyişdirilməsinin məqsədəmüvafiqliyi əsaslandırılır.

8. Təqdim olunmuş diplomun, sertifikatın, şəhadətnamənin, attestatın və s. sənədlərin surətlərinin düzgünlüyünü təsdiq etməzdən əvvəl notariusun internet vasitəsilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin elektron informasiya bazasına daxil olaraq həmin sənədin həqiqiliyini yoxlaya bilməsi üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyində Azərbaycan Respublikasının ali, orta ixtisas, ilk peşə-ixtisas və ümumi təhsil müəssisələrini qurtaran bütün məzunlar üzrə

elektron informasiya bazasının yaradılmasının məqsədəuyğunluğu göstərilir.

9. Əvvəllər qüvvədə olmuş Mülki Məcəllədən fərqli olaraq, yeni Mülki Məcəlləyə görə tərəflərin fiziki və ya hüquqi şəxs olmasından asılı olmayaraq bütün növ daşınmaz əmlakın özgəninkiləşdirilməsi (alqı-satqı, dəyişdirmə, bağışlama, renta – Mülki Məcəllənin 144.1, 668.1.1. və 865.2-ci maddələri) və ipoteka qoyulması haqqında müqavilələr (MM-in 307.7-ci maddəsi) yazılı formada bağlandıqda və notariat qaydasında təsdiq edildikdə etibarlı sayılması açıqlanır.

10.Notarius kimi işləmək istəyən Azərbaycan Respublikasının vətəndaşına olan tələblərin sırasına azı 30 yaşın, hüquq üzrə magistr dərəcəsinə malik olmağın əlavə edilməsinin, notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamə almaq istəyən şəxslərin bilik səviyyəsinin Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən 2 dəfə (birinci dəfə qanunvericilik sahəsinə, ikinci dəfə peşə hazırlığına dair) keçirilən test imtahanı vasitəsilə yoxlanılmasının məqsədəmüvafiqliyi əsaslandırılır.

11.Dövlət notariusuna olan inamı daha da artırmaq məqsədilə, xüsusi notariusla yanaşı, ilk dəfə notarius kimi fəaliyyətə başlamazdan əvvəl, dövlət notariusunun da and içməsinin məqsədəuyğunluğu göstərilir.

12.Notariusların fəaliyyətinə nəzarət və notariat hərəkətləri sirrinin saxlanılması mexanizmi təhlil edilərək, nəzarətin daha səmərəli qaydada həyata keçirilməsi təklif olunur.

13.Xüsusi notariuslara müstəqil surətdə notariat kontorunun ştat cədvəlini və işə qəbul olunan namizədləri müəyyən etmək səlahiyyətlərinin verilməsinin zəruriliyi əsaslandırılır.

14.“Notariat haqqında” AR Qanununun “Notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq” adlanan 29-cu maddəsi təhlil edilir və həmin maddənin ləğv olunmasının məqsədəuyğunluğu göstərilir.

15.Notariat hərəkətlərinə görə dövlət rüsumunun yalnız pos-terminallar, poçt və ya bank vasitəsilə dövlət büdcəsinə köçürülməsinin məqsədəmüvafiqliyi əsaslandırılır.

16.Notariat hərəkətlərinin aparılmasının təkmilləşdirilməsinə dair “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununa, Mülki Məcəlləyə, Ailə Məcəlləsinə, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunlarına, Nazirlər Kabinetinin bəzi Qərarlarına əlavə və dəyişik-

liklər edilməsi barədə konkret təkliflər və tövsiyələr verilir.

**Tədqiqatın nəticələrinin elmi və təcrübi əhəmiyyəti** aşağıdakılardan ibarətdir**:**

1) Dissertasiyada irəli sürülmüş nəzəri təkliflər notariat institutunun elmi bazasını zənginləşdirə bilər;

2) Dissertasiya işində əsaslandırılmış şəkildə irəli sürülən təklif və nəticələrdən notariat sahəsində qanunvericiliyin təkmilləşdirilməsi zamanı istifadə edilə bilər;

3) Dissertasiya işinin nəticələrindən sonrakı elmi tədqiqatlar aparılarkən, habelə hüquq fakültəsində "Notariat hüququ" və "Mülki hüquq" fənnləri tədris edilərkən istifadə oluna bilər;

4) Tədqiqat işindəki nəzəri müddəalardan və faktiki materiallardan notariusların tədris-elm müəssisəsində peşə hazırlığına və ixtisasının artırılmasına dair kurslarda istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses" şöbəsində yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın nəzəri və təcrübü aspektləri, eləcə də əldə edilən əsas elmi nəticələr, həmçinin Şirvan şəhər 1 saylı Dövlət Notariat Kontorunda 4 fevral 2013-cü il tarixdə keçirilmiş elmi seminarda müzakirə olunmuş, irəli sürülən təklif və müddəalar bəyənilmişdir.

Tədqiqat işində notariat fəaliyyəti ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi barədə irəli sürülən bəzi təklif və tövsiyələr Azərbaycan Respublikası Milli Məclisinin qanunvericilik fəaliyyətində istifadə edilmişdir.

Dissertasiyanın əsas müddəaları müəllifin nəşr olunmuş elmi əsərlərində geniş şərh edilmişdir. Tədqiqatın müəyyən aspektləri xarici ölkələrdə və Azərbaycan Respublikasında keçirilmiş beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslarda edilən çıxışlarda, məruzələrdə, seminarlarda yer almışdır.

Dissertasiyada irəli sürülmüş bir çox ideya və müddəalar Bakı Dövlət Universitetinin hüquq fakültəsinin bakalavriat pilləsində "Notariat hüququ" fənninin tədrisində geniş istifadə olunmuşdur.

**Dissertasiyanın strukturu** tədqiqatın məqsədləri, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya girişdən, 13 yarımfəsli əhatə edən 5 fəsildən, nəticədən və 348 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya mövzusunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə dərəcəsi göstərilir, tədqiqatın məqsəd və vəzifələri, nəzəri və normativ əsasları müəyyən edilir, işin yeniliyi qeyd olunur, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır, elmi və təcrübü əhəmiyyəti açıqlanır.

Birinci fəsil - "**Azərbaycanda notariat institutunun yaranması və inkişafı**" 3 yarımfəsildən ibarətdir. **"Mülki dövriyyəyə notariat hərəkətlərinin daxil olmasının tarixi aspektləri"** adlı birinci yarımfəsildə notariatın tarixi araşdırılaraq qeyd olunur ki, notariat qədim Romada yaranmışdır. Notariat hərəkətlərinin aparılmasının meydana gəlməsi yazılı sübutların yaranması ilə eyni vaxta təsadüf edir. Notarius sözü latın mənşəli "notarii" sözündən götürülərək tərcümədə "katib" deməkdir. Qədim Romada notarius barədə ilk məlumat bizim eradan əvvəl 103-cü ildə Siseronun katibinin qeydlərində xatırlanır.

Qədim Romada yaranan notariat institutu sonralar Fransada, Almaniyada, Avstriyada, Rusiyada və digər ölkələrdə qəbul edilmişdir.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da notariat hərəkətlərinin aparılması zərurəti cəmiyyətin inkişafının obyektiv qanunauyğunluqları (xüsusi mülkiyyətin toxunulmazlığının təmin edilməsi, mülkiyyətçinin ona öz mülahizəsinə uyğun olaraq sərəncam verməsi üçün lazımi şəraitin yaradılması) ilə bağlı olmuşdur və notariat hərəkətlərinin aparılmasının meydana gəlməsi yazılı sübutların yaranması ilə eyni vaxta təsadüf edir. Eramızdan əvvəl I minilliyin əvvəllərində Azərbaycanın ilk quldarlıq dövlətlərində ilk notariat hərəkəti olan vəsiyyətnamə heç də həmişə yazılı formada tərtib edilmirdi. Vəsiyyət edənin şahidlərin yanında şifahi söylədiyi fikirlər də nəzərə alınırdı. Şahidlərin yanında edilən şifahi vəsiyyət zamanı şahidlər bir növ notariat xidməti göstərən şəxsə çevrilirdilər və vəsiyyət edənin ölümündən sonra zərurət yarandıqda vəsiyyət edənin sözlərini təkrar etməkdən ötrü çağrılırdılar.

Sasani Qanunnaməsi qəbul edilənədək həm şifahi, həm də yazılı vəsiyyətnamə hüquqi qüvvəyə malik idisə, 620-ci ildən yalnız yazılı vəsiyyətnamə etibarlı sayılırdı. Ölkədə məhkəmə işlərinə kahinlər baxsalar da, mülki-hüquqi əqdləri mirzələr təsdiq edirdilər. Sasani Qanunnaməsində hal-hazırda respublikamızda bir qədər yeni notariat hərəkəti sayılan nikah müqaviləsinin bağlanması nəzərdə tutulmuşdu və

nikah müqaviləsi bağlanan zaman həm cehizin, həm də oğlan tərəfinin qız tərəfinə verəcəyi başlığın məbləği müəyyən edilirdi.

VII əsrdən başlayaraq - XIX əsrin əvvəllərinə kimi, yəni çar Rusiyası Şimali Azərbaycanda Rusiya qanunvericiliyini tətbiq edənədək mülki-hüquqi əqdlərin təsdiqi qazıların səlahiyyətində idi. Hal-hazırda qüvvədə olan “Notariat haqqında” 26 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən dövlət notariusları və notariat hərəkətləri aparan digər vəzifəli şəxslər notariat hərəkətlərinin aparılmasına görə dövlət rüsumu aldıqlari kimi, həmin dövrlərdə qazılar da belə hərəkətlərin aparılmasına görə əhalidən haqq alırdılar.

Tərkibində Şimali Azərbaycanın da olduğu Çar Rusiyasında notarius vəzifəsinin təsis edilməsini nəzərdə tutan 14 aprel 1866-cı il tarixli “Notariat sahəsi haqqında” Əsasnamənin qəbulundan sonra notariat sürətlə inkişaf etməyə başlamışdır. Əsasnaməyə əsasən notariuslar dövlət qulluqçusu sayılırdılar və başqa vəzifə tuta bilməzdilər. Bu islahatın əsas xüsusiyyəti notariatın məhkəmə orqanının tərkibinə daxil edilməsindən ibarət idi. Əsasnamədə notariatın iki instansiyadan ibarət olması nəzərdə tutulmuşdu: 1) Aktları və əqdləri təsdiq edən kiçik notarius; 2) Dairə məhkəməsinin tərkibində olan, kiçik notariusun daşınmaz əmlakla əlaqədar apardığı (alqı-satqı, girov və s.) notariat aktlarını təsdiq edən və notariat arxivinə rəhbərlik edən böyük notarius.

Arxiv sənədlərinin təhlili əsasında göstərilir ki, Azərbaycanda xüsusi notarius kontoru ilk dəfə 1868-cı ildə Bakı şəhərində Xristofor İliç Kanonov, Yelizavetpolda Yefim Dmitriyeviç Fyodorov və Şuşada Yakov Karamanoviç Şahnazarov tərəfindən açılmışdır. Bu illərdən başlayaraq Azərbaycanda notariatın inkişafının yeni dövrü, dövlət notariusları ilə bərabər xüsusi notariusların fəaliyyət dövrü başlayır.

Hal-hazırda qüvvədə olan “Notariat haqqında” AR Qanununun 67-ci maddəsinə müvafiq olaraq notarius əqdin şərhindən ibarət olmayan sənədlərdə imzanın həqiqiliyini təsdiqləyir, amma həmin dövrdə notariuslar və notariat aktını təsdiq edən digər vəzifəli şəxslər müqavilə təsdiqi zamanı təsdiq qeydində müqavilənin təsdiq olunduğunu deyil, tərəflərin imzalarının həqiqiliyinin təsdiqləndiyini göstərirdilər. Yəni, əqdin şərhindən ibarət olan sənədlərdə imzanın həqiqiliyi təsdiqlənirdi. XIX əsrin sonu - XX əsrin əvvəllərində notarius vəzifəsi çox nüfuzlu vəzifə sayılırdı. Kargüzarlıq rus dilində aparılırdı və notarius vəzifəsinə rus dilini mükəmməl bilən şəxslər təyin edilirdi.

**“XX əsrdə Azərbaycanda notariatın inkişaf mərhələləri”** adlanan ikinci yarımfəsildə XX əsrin əvvəllərində Azərbaycanda yeni xüsusi notarius kontorlarının açılması qeyd olunur. Müəllif arxiv sənədlərinə istinad edərək göstərir ki, Bakıda 1901-ci ildə A.A.Vişnevski, 1903-cü ildə V.İ.Qureviç, 1904-cü ildə L.E.Çimmerman, 1910-cu ildə L.K.Mamulayşvili, 1911-ci ildə D.Y.Tolstoy, 1912-ci ildə İ.L.Lyaxoviç və Q.V.Somov, 1916-cı ildə N.M.Turboviç; Yelizavetpolda 1903-cü ildə Ç.V.Moseviç; Qubada 1904-cü ildə V.İ.Fedotov; Şuşada 1907-ci ildə İ.M.Kopiçin və Lənkəranda 1914-cü ildə V.İ.Qançev xüsusi notarius kimi fəaliyyətə başladılar.

28 may 1918-ci ildən 28 aprel 1920-ci ilə kimi, yəni Azərbaycan Demokratik Respublikasının dövründə, notariuslarin 1918-ci il mayın 28-nə kimi təsdiq etdikləri notariat aktları öz hüquqi qüvvəsini saxlayırdı, həmçinin əvvəllər fəaliyyət göstərmiş həm məhkəmələrin tərkibində olan notarius kontorları, həm də xüsusi notariuslar ADR-in dövründə də fəaliyyətlərini davam etdirirdilər. Azərbaycanın notariat sistemi inkişaf etmiş əksər xarici ölkələrin notariat sistemindən fərqlənmirdi və Azərbaycan notariuslarının təsdiq etdiyi sənədlər bütün xarici ölkələrdə qəbul edilirdi.

1920-ci il aprel inqilabından sonra Azərbaycanda notariatın hüquqi statusu köklü surətdə dəyişmişdir. İstehsal vasitələri, torpaq və yaşayış sahəsi üzərində xüsusi mülkiyyətin ləğvi Azərbaycan notariatını nüfuzsuz bir orqana çevirdi. 15 oktyabr 1920-ci il tarixdə Azərbaycan İnqilab Komitəsinin qəbul etdiyi “Xalq notariatı haqqında” Əsasnamənin 1-ci maddəsində Xalq Ədliyyə Komissarlığının tərkibində xalq notariusu vəzifəsinin təsis edilməsi nəzərdə tutulmuşdu. İnqilabdan əvvəl xüsusi notarius olmuş bəzi notariuslar inqilabdan sonra xalq notariusu kimi fəaliyyət göstərirdilər.

XX əsrin 30-cu illərində notariat əməliyyatlarının sayı çox az idi. Bütün müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda bir sıra notariat kontorları bağlanmışdı.

19 iyul 1973-cü il tarixdə SSRİ Ali Sovetinin səkkizinci çağırış altıncı sesiyasında SSR İttifaqı və müttəfiq respublikaların ümumiləşdirilmiş qanunvericilik təcrübəsi, habelə notariat orqanlarının çoxillik fəaliyyəti əsasında hazırlanmış, 32 maddədən ibarət “Dövlət notariatı haqqında” SSRİ Qanununun qəbulundan sonra müttəfiq respublikalar “Notariat haqqında” Qanunlarını qəbul etdilər. “Dövlət

notariatı haqqında" Azərbaycan SSR Qanununun qəbulu RSFSR-in analoji qanunundan daha əvvələ, 27 dekabr 1973-cü ilə təsadüf edir.

Tədqiqatçı qeyd edir ki, SSRİ Nazirlər Sovetinin 2 dekabr 1988-ci il tarixli "Dövlət və ictimai mənzil fondu evlərindəki mənzillərin vətəndaşlara şəxsi mülkiyyətə satılması haqqında" 1400 №-li Qərarını rəhbər tutan Azərbaycan SSR Nazirlər Sovetinin 6 yanvar 1989-cu ildə qəbul etdiyi 12 №-li analoji Qərarından sonra mənzillərin özəlləşdirilməsinə start verilmişdir və mənzilin şəxsi mülkiyyət hüququnun obyektinə çevrilməsi ilə notariat əməliyyatlarının sayı sürətlə artmışdır.

Azərbaycan Respublikasında 1995-ci ildən mağazaların, yanacaqdoldurma məntəqələrinin və digər qeyri-yaşayış sahələrinin, həmçinin torpaq sahələrinin özəlləşdirilməsinə başlanılması ilə fiziki və hüquqi şəxslərin mülkiyyətində yeni növ daşınmaz əşyaların yaranması notariat əməliyyatlarının sayını daha da artırdı.

Üçüncü yarımfəsildə "**Azərbaycanda notariatın hazırkı vəziyyəti və fəaliyyət istiqamətləri"** araşdırılır. Müəllif göstərir ki, SSRİ-nin dağılması nəticəsində müstəqillik qazanan, SSRİ-nin tərkibində olmuş keçmiş müttəfiq respublikalar tədricən notariatla bağlı qanunlarını qəbul edirdilər. 1999-cu il noyabrın 26-da Milli Məclis tərəfindən qəbul olunan müstəqil Azərbaycan Respublikasının "Notariat haqqında" Qanunu 30 yanvar 2000-ci il tarixdə "Azərbaycan" qəzetində dərc olunaraq qüvvəyə minmişdir. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanunu 19 fəsil, 94 maddədən, həmçinin 1 və 2 saylı əlavələrdən ibarət idi. 1 saylı əlavədə dövlət rüsumunun dərəcələri, 2 saylı əlavədə isə əlavə xidmət haqqının məbləğləri öz əksini tapmışdır. İlk dəfə idi ki, dövlət rüsumunun dərəcələri və əlavə xidmət haqqının məbləğləri "Notariat haqqında" Qanunla müəyyən olunurdu. Dövlət rüsumunun dərəcələri nəzərəçarpacaq dərəcədə artmışdı.

Qanunun qüvvəyə minməsi ilə notariat hərəkətlərinin aparılmasına görə yeni, artırılmış dövlət rüsumlarının tutulmasına başlanıldı və dövlət rüsumunun yüksək olması haqlı narazılıq yaratdı. Məhz bu səbəbdən, Milli Məclis 18 aprel 2000-ci il tarixli Qərarı ilə "Notariat haqqında" AR Qanununa əlavə və dəyişikliklər edərək notariat hərəkətlərinin aparılmasına görə dövlət rüsumunun dərəcələrini aşağı salmışdır. Bu dəyişikliklərlə Azərbaycan notariatı tarixində ilk dəfə olaraq müqavilələrin, o cümlədən daşınmaz əmlakın özgəninkiləşdirilməsi barədə müqavilələrin təsdiqinə görə dövlət rüsumu müqavilə məbləğinin faizi nisbətində deyil, sabit məbləğdə müəyyən edilmişdir. Yəni, 3 iyun 2000-ci ildən etibarən on milyon və

ya beş min ABŞ dolları dəyərində olan daşınmaz əmlakın özgəninkiləşdirilməsi barədə müqavilələr təsdiq edilərkən müqavilə üzrə əmlak başqa şəxslərə (başqa şəxslər dedikdə, ər (arvad), uşaqlar, valideynlər, baba, nənə, nəvə, qardaş, bacı, qardaş və ya bacının uşağı, həmçinin əmi (dayı), bibi (xala) və ya onların uşaqlarından başqa digər şəxslər nəzərdə tutulur) keçdikdə eyni miqdarda dövlət rüsumu alınır. Tədqiqatçı hesab edir ki, qiyməti on milyon və ya beş min ABŞ dolları olan daşınmaz əmlakın özgəninkiləşdirilməsi baradə müqavilə təsdiqlənərkən müqavilə üzrə əmlak başqa şəxslərə keçdikdə eyni miqdarda dövlət rüsumunun tutulması sağlam məntiqə ziddir. Müəllifin fikrincə, daşınmaz əmlakın özgəninkiləşdirilməsi barədə müqavilələr təsdiqlənərkən müqavilə üzrə əmlak başqa şəxslərə keçdikdə satış qiymətinə müvafiq faizin dövlət rüsumu kimi tutulmasının qanunvericilikdə öz əksini tapması məqsədəuyğun olardı.

İddiaçı qeyd edir ki, 1 avqust 2001-ci il tarixə kimi notariat fəaliyyəti üzrə kargüzarlıq həm kiril, həm də latın qrafikası ilə azərbaycan dilində, bəzən isə rus dilində aparıldığı halda, 2001-ci il avqustun 1-dən başlayaraq yalnız latın qrafikası ilə azərbaycan dilində aparılılır.

Müəllif göstərir ki, notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq istəyən şəxslərin bilik səviyyəsi imtahan və müsabiqə vasitəsilə yoxlanılır. İmtahanın və müsabiqənin keçirilməsi qaydasının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən deyil, "Notariat haqqında" AR Qanunu ilə müəyyən olunması məqsədəuyğun sayılaraq təklif edilir ki, şəhadətnamə almaq istəyən şəxslərin bilik səviyyəsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası) tərəfindən 2 dəfə (birinci dəfə qanunvericilik sahəsinə, ikinci dəfə peşə hazırlığına dair) keçirilən test imtahanı vasitəsilə yoxlanılsın.

"Notariat haqqında" AR Qanununun 14-cü maddəsinin 3-cü hissəsinə görə hər bir notariusun fəaliyyəti iki ildə bir dəfədən az olmayaraq yoxlanılmalıdır. "Notariat fəaliyyətinin yoxlanılması qaydaları"nın 1.10-cu bəndinə əsasən yoxlamanın müddəti işin həcmindən asılı olaraq 7 (yeddi) iş günündən artıq olmamalıdır. Zərurət yarandıqda həmin müddət artırıla bilər. Amma, müddətin maksimum neçə gün artırılmasının mümkünlüyü Qaydalarda göstərilməyib. Tədqiqatçının fikrincə, Bakı şəhərində iki il ərzində 100 mindən çox notariat hərəkətini rəşmiləşdirən notariusların olduğunu nəzərə alaraq,

7 iş günü ərzində 100 mindən çox notariat hərəkətini rəsmiləşdirmiş notariusun fəaliyyətinin yoxlanılması qeyri-mümkün olduğu üçün "Notariat haqqında" AR Qanununun 14-cü maddəsinin 3-cü hissəsinin dəyişdirilərək aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq olardı: "Hər bir notariusun fəaliyyəti iki ildə bir dəfədən az olmayaraq, bir il ərzində 30 mindən çox notariat hərəkətini rəsmiləşdirmiş notariusun fəaliyyəti isə bir ildə bir dəfədən az olmayaraq yoxlanılmalıdır".

Müəllif hesab edir ki, xüsusi notariusla yanaşı, ilk dəfə notarius kimi fəaliyyətə başlamazdan əvvəl dövlət notariusunun da and içməsi, dövlət notariusuna olan inamı daha da artırardı. İddiaçının fikrincə, xüsusi notariat kontorunun ştat cədvəli və xüsusi notarius tərəfindən namizədlərin işə qəbulu məsələlərində xüsusi notariusların müstəqilliyini təmin etmək məqsədilə "Notariat haqqında" AR Qanununun 25-ci maddəsinin 4-cü hissəsinin dəyişdirilərək aşağıdakı redaksiyada verilməsi məqsədəuyğun olardı: "Xüsusi notarius müstəqil surətdə notariat kontorunun ştat cədvəlini və işə qəbul olunan namizədləri müəyyən edir. Xüsusi notariusun iş rejimi isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) ilə razılaşdırılır".

Hal-hazırda Azərbaycanda həm dövlət, həm də xüsusi notariusların fəaliyyətinə Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi nəzarət edir. Azərbaycan Respublikasında xüsusi notariusların fəaliyyətinə daha səmərəli nəzarət etmək və onların müstəqilliyini təmin etmək üçün notariat palatasının yaradılması təklif olunur.

Tədqiqatçının fikrincə, "Notariat haqqında" AR Qanununun 1-ci maddəsində dəyişiklik edilərək notariat hərəkətlərinin Azərbaycan Respublikasının adından aparılmasının öz əksini tapması respublikamızda notariatın nüfuzunu artırar və insanlar norariat hərəkətlərinin aparılması üçün notariat kontorlarına daha inamla müraciət edərlər. Məhz bu səbəbdən "Notariat haqqında" AR Qanununun 1-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissənin əlavə edilməsi məqsəmüvafiq sayılır: "Notariat hərəkətlərini aparmağa müvəkkil edilmiş şəxslər notariat hərəkətlərini Azərbaycan Respublikasının adından aparırlar".

İddiaçı qeyd edir ki, Azərbaycan Respublikasında 2011-ci ilin fevral ayından başlayaraq ilk dəfə olaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsində "Notariat hüququ" adlı fənnin tədrisinə başlanılmışdır. "Notariat hüququ" seçmə fənn kimi tədris edildiyi üçün ona ayrılan saatların miqdarı azdır. Bu seçmə fənnin tədrisi üçün 30 saat mühazirə,

15 saat seminar məşğələlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Hüquq fakültəsi olan digər ali təhsil müəssisələrində - Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Milli Aviasiya Akademiyasında, Naxçıvan Dövlət Universitetində və Daxili İşlər Nazirliyinin Polis Akademiyasında isə bu fənn ümumiyyətlə tədris edilmir. İddiaçının fikrincə, "Notariat hüququ"nun həm tədris fənni, həm də elm sahəsi kimi inkişafına ehtiyac vardır. "Notariat hüququ" fənninin "Mülki hüquq" və "Mülki proses" fənnlərinə yaxın olduğunu nəzərə alaraq, hüquq fakültəsinin bakalavr pilləsinin IV kursunda "Notariat hüququ" adlı məcburi fənnin tədris edilməsi məqsədəuyğun olardı. II və III kurslarda "Mülki hüquq"un Ümumi və Xüsusi hissələri, həmçinin "Mülki proses" tədris edilir. Vərəsəlik məsələləri, daşınmaz əşyalarla bağlı münasibətlər, öhdəlik institutu və s. "Mülki hüquq" fənnində, mülki və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydası "Mülki proses" fənnində tədris olunduğunu nəzərə alsaq, "Mülki hüquq" və "Mülki proses" fənnlərini öyrəndikdən sonra tələbələr üçün "Notariat hüququ"nu mənimsəmək daha asan olar. "Notariat hüququ" notariat təcrübəsi ilə əlaqəli şəkildə tədris edilməlidir. "Mülki proses" fənninin tədrisi zamanı tələbələrin məhkəmə iclaslarına getməsi üçün heç bir problem olmasa da, tələbələrin notariat kontoruna gedib notarial sənədlərlə tanış olması notariat hərəkətlərinin sirr olması səbəbindən mümkün deyil. Çıxış yolu kimi, təcrübəli notariuslar tərəfindən "Notariat hüququ" fənninin tədris edilməsi məqsədəuyğun sayılır.

İkinci fəsil - **"Notariat təcrübəsində əqdlərin, sənədlərin surətlərinin və imzaların həqiqiliyinin təsdiqi problemləri"** 4 yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **"Daşınmaz əmlakın özgəninkiləşdirilməsi haqqında əqdlərin notariat qaydasında təsdiq edilməsi"** araşdırılır. Müəllif göstərir ki, daşınmaz əmlakı özgəninkiləşdirən və ya girov qoyan şəxs onun ərinin (arvadının) olmaması (subay, dul olması) haqqında ərizə təqdim edərsə, notarius bunu əqdin digər iştirakçısının nəzərinə çatdırır, o isə ərizədə imza etməklə, həmin halın ona məlum olduğunu təsdiq edir. Göstərilən ərizə əmlakı özgəninkiləşdirən və ya girov qoyan şəxsin özü tərəfindən, əqd nümayəndə vasitəsilə bağlandıqda isə nümayəndə tərəfindən verilməlidir. Təcrübədə mövcud olan problem ondan ibarətdir ki, notarius özgəninkiləşdirən şəxsin subay olmasını yalnız şəxsiyyət vəsiqəsi əsasında müəyyənləşdirir. Amma, şəxs birgə nikah dövründə əldə etdiyi daşınmaz əmlakı boşandıqdan və ya əri (arvadı) öldükdən

sonra (o halda ki, sağ qalmış ərin (arvadın) payı vərəsəlik qaydasında hələ rəsmiləşməyib) özgəninkiləşdirdikdə, özgəninkiləşdirənin şəxsiyyət vəsiqəsində, mülkiyyət hüququnu təsdiq edən sənəddə və yaşayış yeri üzrə verilən arayışda mülkiyyətçinin keçmiş əri (arvadı) haqqında məlumat olmadığı üçün notarius bu əmlakın ikidə bir hissəsinin özgəninkiləşdirənin ərinə (arvadına) məxsus olmasını bilmir. Nəticədə ümumi birgə mülkiyyətdə olan daşınmaz əmlakın digər mülkiyyətçinin məlumatı və razılığı olmadan özgəninkiləşdirilməsinin notariat qaydasında təsdiq edilməsi imkanı yaranır.

Tədqiqatçının fikrincə, "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında" Təlimatın 49-cu bəndinin 7-ci abzasının dəyişdirilərək aşağıdakı redaksiyada verilməsi mövcud problem həll edərdi: "Əmlakı özgəninkiləşdirən və ya girov qoyan şəxs subay, boşanmış və ya dul olduqda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsindən heç vaxt nikahda olmadığı və ya əvvəllər nikahda olmuşsa - kimlə (və ya kimlərlə) nikahda olduğu, nikah və boşanma tarixləri, həmçinin nikah və boşanmanın qeyd olunduğu orqan göstərilən arayış təqdim etməlidir".

İddiaçı "Notariat haqqında" AR Qanununun 46-ci maddəsinin təhlili əsasında həmin maddənin 2-ci hissəsinin ləğv edilməsini, 3-cü hissəsinin isə müvafiq olaraq 2-ci hissə hesab edilərək məzmununun dəyişdirilərək aşağıdakı redaksiyada verilməsini məqsədəuyğun sayır: "Yaşayış evinin, mənzilin, bağın, bağ evinin, qarajın, torpaq sahəsinin, digər daşınmaz əmlakın özgəninkiləşdirilməsi və ya girov qoyulması haqqında əqdlər təsdiq olunarkən əmlakın özgəninkiləşdirilməsinə qadağanın olub-olmaması və ya əmlaka həbs qoyulub-qoyulmamasının yoxlanılması məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən (Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən) arayış tələb olunur. Arayışda daşınmaz əmlak üzərində ilk dəfə mülkiyyət hüququ yarandığı tarixdən arayış verilən tarixədək həmin daşınmaz əmlakla əlaqədar aparılmış bütün hüquqi hərəkətlər, o cümlədən notariat hərəkətləri (notariat kontorunun adı, notariat hərəkətinin aparıldığı tarix və qeyd olunduğu reyestr nömrəsi göstərilməklə) və həmin daşınmaz əmlakla bağlı çıxarılmış məhkəmə qərarları xronoloji ardıcıllıqla göstərilməlidir".

Müəllifin fikrincə, arayışda göstərilən məlumatların öz əksini tapması, xüsusilə daşınmaz əmlakla bağlı alqı-satqı, dəyişdirmə və ipoteka müqaviləsi rəsmiləşdirilərkən – alqı-satqı müqaviləsi zamanı

alıcının, dəyişdirmə müqaviləsində tərəflərin, ipoteka müqaviləsi bağlanarkən isə ipoteka saxlayanın hüquqlarının daha da qorunmasına xidmət edər və gələcəkdə baş verə biləcək məhkəmə mübahisələrini minimuma endirər. Ona görə ki, alıcıda, ipoteka saxlayanda, həmçinin dəyişdirmə müqaviləsində tərəflərdə daşınmaz əmlak barəsində dəqiq məlumat olacaq və daşınmaz əmlakın əvvəlki mülkiyyətçiləri və ya həmin əmlaka hüquqları olmuş şəxslər tərəfindən qaldırılması mümkün olan məhkəmə iddiaları haqqında bir daha fikirləşmək imkanı yaranacaq.

Həmçinin, notariat kontoruna müraciət edən şəxslərin rahatlığını təmin etmək məqsədilə, notariusun Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinə faks və ya elektron poçt vasitəsi ilə göndərdiyi sorğu əsasında arayışın alınmasının mümkünlüyünün (real vaxt rejimində lazımı məlumatları yoxlamaq imkanı olduqda belə) qanunvericilikdə öz əksini tapması məqsədəmüvafiq hesab edilir.

İddiaçının fikrincə, daşınmaz əmlakın alqı-satqı müqaviləsi rəsmiləşdirilərkən həm satıcının, həm də alıcının hüquqlarını qorumaq məqsədilə "Notariat haqqında" AR Qanununun 74-cü maddəsinin 4-cü və 5-ci hissələrinin dəyişdirilərək aşağıdakı redaksiyada verilməsi məqsədəuyğun olardı: "74-cü maddənin 4-cü hissəsi: "Daşınmaz əmlak üzərində sərəncam verilməsi ilə bağlı notariat qaydasında təsdiq edilən müqavilələr üzrə 20.000 (iyirmi min) manatdan artıq vəsaitin tərəflərdən birinin digərinə ödəməsi tərəflərin qarışılıqlı razılığı ilə satıcının bank hesabı və ya notariusun bankda açdığı depozit hesabı vasitəsi ilə həyata keçirilməlidir".

74-cü maddənin 5-ci hissəsi: "Notarius belə müqavilələri pul məbləğinin satıcının bank hesabına və ya notariusun bankda açılmış depozit hesabına ödənilməsi barədə qəbz təqdim edildikdən sonra təsdiq edir".

Müəllif hesab edir ki, əmlakın, xüsusilə daşınmaz əmlakın alqı-satqı müqaviləsi, həmçinin renta ödənilməsi üçün daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsi təsdiq edilərkən nikah müqaviləsi ilə başqa qayda müəyyən edilmədiyi hallarda, alıcının və ya renta ödəyicisinin ərinin (arvadının) razılığının alınması, razılığın olmasının alqı-satqı müqaviləsində və müqavilə əsasında alıcıya və ya renta ödəyicisinə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən veriləcək daşınmaz əmlakın dövlət reyestrindən çıxarışda öz

əksini tapması məqsədəuyğun olardı. Alıcının və ya renta ödəyicisinin razılığı alınarsa, daşınmaz əmlakın alıcısı, həmçinin renta ödəyicisi gələcəkdə həmin daşınmaz əmlakı özgəninkiləşdirmək istədikdə əmlak üzərində mülkiyyət hüququ olan şəxsləri asanlıqla müəyyənləşdirmək olar.

İkinci yarımfəsildə **"Notariat təcrübəsində təmsilçilik məsələləri"** təhlil edilir. Tədqiqat işində qeyd olunur ki, Azərbaycanın əvvəlllər qüvvədə olmuş həm Mülki Məcəlləsində, həm də Mülki-Prosessual Məcəlləsində "nümayəndəlik" terminindən istifadə edilirdi. Yeni MM-də "nümayəndəlik" termini "təmsilçilik" termini ilə əvəz edilsə də, MPM-də nədənsə "nümayəndəlik" termini saxlanılmışdır. Bunlar sinonim sözlər olsa da, "təmsilçilik" sözü hüquqi dilə daha uyğun gəlir.

Tədqiqatçının fikrincə, etibarnamənin, xüsusilə daşınmaz əmlak üzərində sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamənin istənilən müddətə verilə bilməsi mövcud reallığa uyğun olmadığı üçün, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 361.1 və 363.3-cü maddələrinin dəyişdirilərək aşağıdakı redaksiyada verilməsi məqsədəuyğun olardı:

363.1-ci maddə: "Bu Məcəllənin 363.3-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, etibarnamə 10 (on) il müddətə verilə bilər. Əgər etibarnamədə müddət göstərilməyibsə, o bağlandığı gündən bir il ərzində qüvvəsini saxlayır. Bağlandığı tarix göstərilməyən etibarnamə əhəmiyyətsizdir".

363.3-cü maddə: "Daşınmaz əmlaka və nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə bir ildən artıq müddətə verilə bilməz".

Müəllif hesab edir ki, daşınmaz əmlak və nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə, həmçinin 3.000 (üç min) manatdan yuxarı pulun alınması üçün verilən etibarnamələrin yalnız notarius və ya Azərbaycan Respublikası konsulluqlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən təsdiq edilə bilməsinin imperativ qaydada Mülki Məcəllədə öz əksini tapması məqsədəmüvafiq olardı. Belə etibarnamələrin təsdiqini Mülki Məcəllənin 362.3-cü maddəsində göstərilən şəxslər arzu etdikdə, yaxınlıqda yerləşən notariat kontorunun notariusu müvafiq olaraq hospitala, sanatoriyaya və digər hərbi-müalicə müəssisəsinə, habelə hərbi hissəyə, azadlıqdan məhrumetmə yerinə, əhalinin sosial müdafiəsi müəssisəsinə və s. gedərək iş yerindən kənarda notariat hərəkətini apara bilər.

Həmçinin, saxtakarlığın qarşısının alınması məqsədilə daşınmaz əmlakın, nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və onlara sərəncam verilməsi ilə bağlı etibarnamələr, habelə 3.000 (üç min) manatdan yuxarı pulun alınması üçün verilən etibarnamələr təsdiq edilərkən etibarnamənin üz tərəfində, yəni etibarnamənin birinci səhifəsinin yuxarı sol küncündə etibarnamə vermiş şəxsin (şəxslərin) 30x40 millimetr ölçüdə rəngli fotoşəklinin (fotoşəkillərinin) yapışdırılması məqsədəmüvafiq sayılır.

İddiaçı göstərir ki, nə Mülki Məcəllədə, nə "Notariat haqqında" AR Qanununda, nə də "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında" Təlimatda etibarnamə verən fiziki şəxsin evli, dul və ya subay olması haqqında məlumatların etibarnamədə qeyd olunmasının nəzərdə tutulmaması bir sıra problemlər yaradır. Təcrübədə bu problem əsasən əmlaka sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamələrin təsdiqindən sonra, həmin etibarnamə əsasında əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə rəsmiləşdirilərkən yaranır. Problemi həll etməkdən ötrü təklif edilir ki, "Notariat haqqında" AR Qanununun 49-cu maddəsinə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin: "Fiziki şəxs əmlaka, o cümlədən daşınmaz əmlaka və nəqliyyat vasitələrinə sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə verdikdə, həmin şəxsin subay və ya evli olması etibarnamədə göstərilir".

**"Notariat təcrübəsində sənədlərin surətlərinin düzgünlüyünün təsdiq edilməsi"** adlı üçüncü yarımfəsildə sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünün təsdiqi Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin qanunvericiliyinin müqayisəli təhlili əsasında tədqiq olunmuşdur. Müəllif qeyd edir ki, Rusiya, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Belarusun notariat fəaliyyətini tənzimləyən Qanunlarında "Notariat haqqında" AR Qanununun 64-cü maddəsinin 1-ci hissəsində və 65-ci maddəsində işlədilən "idarə, müəssisə və təşkilat" sözlərinin əvəzinə "hüquqi şəxs" terminindən istifadə edilir. Müəllifin fikrincə, "Notariat haqqında" AR Qanununun 64-cü maddəsinin 1-ci hissəsində və 65-ci maddəsində işlədilən "idarə, müəssisə və təşkilat" sözlərinin müvafiq surətdə "hüquqi şəxs" sözü ilə əvəz edilməsi məqsədəuyğun olardı. "Notariat haqqında" AR Qanununun 64-cü maddəsinin 2-ci hissəsində işlədilən "şəxs" termininin əvəzinə isə Rusiya, Ukrayna, Özbəkistan, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Moldova və Belarusun analoji Qanunlarında "vətəndaş" termini işlədilir.

Şəxs dedikdə, həm hüquqi, həm də fiziki şəxs başa düşüldüyünü nəzərə alaraq, hesab edilir ki, "Notariat haqqında" AR Qanununun 64-cü maddəsinin 2-ci hissəsində işlədilən "şəxs" termini qüsurludur və həmin terminin "fiziki şəxs" termini ilə əvəz olunması məqsədəmüvafiq olardı.

Qırğızıstan Respublikası Hökumətinin 20 aprel 2011-ci il tarixli 179 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qırğızıstan Respublikasının notariusları tərəfindən notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 153-cü bəndi tibb sənədlərinin; sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin qeydiyyat şəhadətnaməsinin; lisenziyaların; sertifikatların; icazələrin; mühasibat, maliyyə və gömrük sənədlərinin; hüquqi şəxsin (şəxslərin) daxili sənədlərinin; qüvvədə olan qanunvericiliyə uyğunluğunun yoxlanılması mümkün olmayan fiziki və hüquqi şəxsin (şəxslərin) müstəqil hazırladıqları notariat qaydasında təsdiq olunmamış sənədlərin; həmçinin sxem, cədvəl və digər qrafik təsvir əks olunmuş sənədlərin; qaralaması, pozuntusu və digər xüsusiyyətləri ilə həqiqiliyi şübhə doğuran sənədlərin; mətnində sənədin surətinin çıxarılması qadağan edilən və ya qanunvericiliklə surətinin təsdiqinə icazə verilməyən sənədlərin surətlərinin təsdiqini qadağan edir.

"Qırğızıstan Respublikasının notariusları tərəfindən notariat hərəkətlərinin aparılması qaydası haqqında Təlimat"ın 156-cı bəndinə müvafiq olaraq internet-səhifənin surətini təsdiq etmək olar. Bu zaman notarius internet şəbəkəsində yerləşdirilmiş informasiyanı nəzərdən keçirir, avtomatik rejimdə yerləşdirilmiş faylın ünvanı və çap edilmə tarixi göstərilməklə internet səhifə bütünlüklə kağız daşıyıcısında çap edilir. İnternet səhifə çap edildikdən sonra çap versiyası elektron variantla tutuşdurulur. Notarius təsdiq qeydində internet şəbəkəsində olan ünvan səhifəsini, sənədin rekvizitlərini, zərurət olduqda mətnin başlığını və ya qrafik informasiyanı, onun internet səhifədəki yerini göstərir.

İddiaçı hesab edir ki, "Qırğızıstan Respublikasının notariusları tərəfindən notariat hərəkətlərinin aparılması qaydası haqqında Təlimat"ın 153-cü bəndində təsbit olunmuş müddəaların müəyyən ixtisarlarla "Notariat haqqında" AR Qanununun 64-cü maddəsinin 3-cü hissəsində, 156-cı bənddə öz əksini tapmış müddəaların isə qeyd olunan Qanunun 64-cü maddəsinin 4-cü hissəsində öz əksini tapması məqsədəmüvafiq olardı. Bu məqsədlə təklif edilir ki, "Notariat haq-

qında" AR Qanununun 64-cü maddəsinə aşağıdakı məzmunda 3-cü və 4-cü hissələr əlavə edilsin:

64-cü maddənin 3-cü hissəsi: "Tibb sənədlərinin; mühasibat, maliyyə və gömrük sənədlərinin; hüquqi şəxsin (şəxslərin) daxili sənədlərinin; sxem, cədvəl və digər qrafik təsvir əks olunmuş sənədlərin; qaralaması, pozuntusu və digər xüsusiyyətləri ilə həqiqiliyi şübhə doğuran sənədlərin; mətnində sənədin surətinin çıxarılması qadağan edilən və ya qanunvericiliklə surətinin təsdiqinə icazə verilməyən sənədlərin surətləri təsdiq edilmir".

64-cü maddənin 4-cü hissəsi: "İnternet-səhifənin surətini təsdiq etmək olar. Bu zaman faylın ünvanı və çap edilmə tarixi göstərilməklə internet səhifə bütünlüklə kağız daşıyıcısında çap edilir. İnternet səhifə çap edildikdən sonra çap versiyası elektron variantla tutuşdurularaq yoxlanılır".

Belarus Respublikası Ədliyyə Nazirliyinin 23 oktyabr 2006-cı il tarixli 63 nömrəli Qərarı ilə təsdiq edilmiş "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 206-cı bəndinə əsasən notarius yalnız bir ardıcıllıqla surətlərdən çıxarılmış surətlərin düzgünlüyünü təsdiq edir. Tədqiqatçının fikrincə, Belarus Respublikası Ədliyyə Nazirliyinin 23 oktyabr 2006-cı il tarixli 63 nömrəli Qərarı ilə təsdiq edilmiş "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 206-cı bəndində öz əksini tapmış qaydanın "Notariat haqqında" AR Qanununun 65-ci maddəsinə 2-ci hissə kimi əlavə edilməsi məqsədəuyğun olardı.

Müəllif göstərir ki, qanunvericiliyə görə hüquqi əhəmiyyət daşıyan sənədlərin surətləri təsdiq olunur. Amma bu o demək deyil ki, müddəti bitmiş sənədin, məsələn, notariat qaydasında verilmiş, müddəti bitmiş etibarnamənin surəti təsdiq edilə bilməz, çünki bu sənəd hətta müddəti bitdikdən sonra da həm təmsil edilən, həm də təmsilçi üçün hüquqi əhəmiyyət kəsb edə bilər. Qazaxıstan Respublikası Ədliyyə Nazirliyinin 28 iyul 1998-ci il tarixli "Qazaxıstan Respublikasında notariuslar tərəfindən notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 248-ci bəndində düzgün olaraq bu barədə norma öz əksini tapmışdır. Həmin Təlimatın 247-ci bəndində, həmçinin vəsiyyətnamənin surətinin vəsiyyət edənin ölüm haqqında şəhadətnaməsinin təqdim olunmasından sonra təsdiq edilməsinin mümkünlüyü göstərilmişdir. İddiaçı hesab edir ki, "Qazaxıstan Respublikasında notariuslar tərəfindən notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 247 və 248-ci bəndlərində öz

əksini tapmış normaların analoji qaydada “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”ın 124-cü bəndinə əlavə edilməsi məqsədəmüvafiq olardı.

Dördüncü yarımfəsildə **“Notariat təcrübəsində imzanın həqiqiliyinin təsdiqi məsələləri”** tədqiq edilmişdir. İddiaçı qeyd edir ki, qanunda birbaşa qadağan olmasa da, möhür olmayan, həmçinin möhürün əsli deyil, fotosurəti olan sənədlərdə notariuslar tərcümənin düzgünlüyünü təsdiq etmirlər. Müəllifin fikrincə, bu hal ilə razılaşmaq olmaz, əgər notarius həmin sənədlərin tərtib olunduğu dili bilirsə və sənəddə insanın şərəf və ləyaqətini ləkələyən, habelə etik normalara zidd olan məlumatlar öz əksini tapmadıqda tərcümənin düzgünlüyünü, müvafiq dilləri bilmədiyi halda isə tərcüməçinin imzasının həqiqiliyini təsdiq etməlidir.

Notariat qaydasında və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən şəxsin imzasının həqiqiliyi təsdiq edilmiş sənədin həmin şəxsin ərizəsi əsasında birtərəfli qaydada ləğvi (etibarnamə və vəsiyyətnamə kimi), həmçinin imzanın həqiqiliyi təsdiqlənmiş sənədin qüvvədə olma müddəti barədə göstərişlər qanunvericiliklə müəyyən olunmamışdır. Belə təsəvvür edilir ki, imzanın həqiqiliyinin təsdiqlənməsini nəzərdə tutan sənədlər, o cümlədən əmlak üzərində sərəncam vermək barədə razılıq ərizələri müddətli və müddətsiz ola bilər. Ona görə də, imzanın həqiqiliyi təsdiq edilərkən, imzasının həqiqiliyi təsdiqlənən şəxs həmin sənəddəki imzanın qüvvədə olma müddətini göstərməkdə haqlıdır. Amma, sənəddə şəxsin imzasının həqiqiliyi notariat qaydasında və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiqləndikdən sonra, imzası təsdiq edilmiş şəxsin ərizəsi əsasında həmin sənədin birtərəfli qaydada ləğv edilməsinin mümkünlüyü barədə normanın qanunvericilikdə olmaması notariat təcrübəsində bir sıra problemlər yaradır. Bu problem daşınmaz əmlakın özgəninkiləşdirilməsinə razılıq verilməsi barədə imzanın həqiqiliyi təsdiqlənmiş ərizələrdə xüsusilə özünü göstərir. Qanunvericilikdə boşluğun olması səbəbindən şəxs notariat kontoruna müraciət edərək verdiyi razılığın ləğv olunmasını istədikdə, notarius həmin şəxsə məhkəməyə müraciət etməyi məsləhət görür. İddiaçı hesab edir ki, qanunvericilikdəki boşluğun aradan qaldırılması məqsədilə, sənəddə şəxsin imzasının həqiqiliyi notariat qaydasında və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiqləndikdən sonra, imzası təsdiqlənmiş şəxsin ərizəsi əsasında həmin sənədin birtərəfli qaydada ləğv edilməsinin mümkünlüyü barədə normanın “Notariat haqqında”

AR Qanununun 67-ci maddəsinə 4-cü hissə kimi əlavə edilməsi məqsədəuyğun olardı. Həmçinin, imzası təsdiq edilmiş şəxsdən həmin sənədin ləğv olunması haqqında ərizə alan kimi, notarius və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən texniki vasitələrdən istifadə edilməklə, dərhal bu barədə müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə) məlumat verilməsi təklif olunur. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) öz növbəsində ləğv olunmuş notariat hərəkəti haqqında məlumatın dərhal notariat kontorlarına və ya aidiyyəti digər orqanlara göndərilməsi məqsədəuyğun sayılır.

Habelə, imzanın həqiqiliyi ləğv olunduğu vaxtadək imzanın həqiqiliyi təsdiq edilmiş sənəd əsasında yerinə yetirilmiş hərəkətlər nəticəsində əmələ gələn hüquq və vəzifələrin qüvvəsini saxlaması barədə müddəanın "Notariat haqqında" AR Qanununun 67-ci maddəsinə 5-ci hissə kimi əlavə edilməsi təklif olunur.

İddiaçı göstərir ki, sənədlərdəki imzanın (imzaların) həqiqiliyi və sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyü təsdiqləndikdən sonra, həmin sənədlərin bir nüsxəsi notariat kontorunda saxlanılmayaraq müraciət etmiş şəxsə verilir. Məhz bu səbəbdən, bəzən əqdin şərhindən ibarət olan sənədlərdə imzanın həqiqiliyinin təsdiq edilməsi hallarına rast gəlinir. Müəllif hesab edir ki, saxtakarlığın qarşısının alınması üçün sənədlərdəki imzaların həqiqiliyi və sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqi üçün nəzərdə tutulmuş sənədlər iki nüsxədə hazırlanmalı və nüsxələrdən biri notariat kontorunda saxlanılmalıdır. Göstərilənlərin tətbiqi məqsədilə, "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında" Təlimatın 128-ci və 135-ci bəndlərində dəyişiklik edilərək, 128-ci bəndin 3-cü abzasına və 135-ci bəndin 2-ci abzasına aşağıdakı məzmunda əlavələrin edilməsi məqsədəuyğun olardı:

128-ci bəndin 3-cü abzası: "İmzanın (imzaların) həqiqiliyi təsdiq edilən sənədlər iki nüsxədə tərtib edilir, bunların bir nüsxəsi notariat kontorunda saxlanılır, digəri isə imzası təsdiq olunmuş şəxsə (şəxslərə) verilir".

135-ci bəndin 2-ci abzası: "Tərcümənin düzgünlüyü təsdiq edilən sənədlər iki nüsxədə tərtib edilir, bunların bir nüsxəsi notariat kontorunda saxlanılır, digəri isə müraciət etmiş şəxsə verilir".

Müəllifin fikrincə, notariat hərəkətlərinin bir növü olan sənədlərdəki imzaların həqiqiliyinin və sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiq edilməsi üçün ayrıca reyestrin

aparılması məqsədəuyğun olardı. Bu məqsədlə Təlimatın 29-cu bəndində dəyişiklik edilərək, həmin bəndin 3-cü abzasına "sənədlərdə imzanın həqiqiliyinin və sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqi "8-İ" reyestrinə qeyd edilir" kimi əlavənin olunması təklif edilir.

Üçüncü fəsil - **"Notariat təcrübəsində ailə hüququ məsələləri"** 3 yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə "**Nikah müqaviləsinin notariat qaydasında təsdiqi"** araşdırılır. Tədqiqatçı qeyd edir ki, nikah müqaviləsi yalnız notariat qaydasında təsdiq olunduqda etibarlıdır. Nikah müqaviləsinin müəyyən müddətə, məsələn, beş il müddətinə və ya müddətsiz bağlanması müqavilədə göstərilə bilər. Müqavilənin subyektləri, yalnız nikaha daxil olan şəxslər və ya ər-arvad ola bilər. Respublikamızın ailə qanunvericiliyinə nikah müqaviləsi institutunun daxil edilməsi o demək deyil ki, nikaha daxil olan bütün şəxslər və ya nikahda olan bütün ər-arvad bu müqaviləni bağlamağa borcludurlar. Qanun tərəflərə belə bir hüquq verir, ancaq onları buna məcbur etmir. Əgər uzun illər nikahlarını dövlət qeydiyyatına almadan faktiki olaraq birgə yaşayan ər-arvad nikah müqaviləsi bağlamaq qərarına gələrlərsə, bu müqavilənin qüvvəyə minməsi üçün onlar nikahlarını dövlət qeydiyyatına aldırmalıdırlar.

Nikah müqaviləsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmalıdır. Ona görə də tərəflər tərtib etdikləri nikah müqaviləsinə qanunvericiliyə zidd olan hər hansı müddəanı daxil etsələr, notarius belə müqaviləni təsdiq etməkdən imtina etməlidir. Məsələn, ər-arvadın bir-birlərini daim sevməsi, bir-birlərinə xəyanət etməyəcəkləri, ev işlərinin kim tərəfindən görülməsi və s. nikah müqaviləsində nəzərdə tutula bilməz.

İddiaçı göstərir ki, digər müqavilələr kimi, nikah müqaviləsi də hər iki tərəfin imza etdiyi hüquqi sənəddir. Amma başqa müqavilələrdə tərəflərin əvəzinə etibarnamə əsasında onların təmsilçiləri də imza edə bilərlər. Sual olunur – nikah müqaviləsində tərəflərin əvəzinə etibarnamə ilə onların təmsilçiləri imza edə bilərlərmi? Nə ailə, nə də mülki qanunvericilik bu suala dəqiq cavab vermir. Doğrudur, Mülki Məcəllənin 359.4-cü maddəsinə əsasən xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlərin, eləcə də Mülki Məcəllədə göstərilən digər əqdlərin təmsilçi vasitəsilə bağlanmasına yol verilmir. Nikah müqaviləsi belə əqdlərə aiddirmi? Müəllif nikah müqaviləsinin təmsilçi vasitəsilə bağlanmasının qeyri-mümkünlüyünün qanun-vericilikdə birbaşa öz əksini tapmasını məqsədəmüvafiq sayaraq təklif

edir ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə aşağıdakı məzmunda 39.5-ci maddə əlavə edilsin: "Nikah müqaviləsinin təmsilçi vasitəsilə bağlanmasına yol verilmir".

Tədqiqatçı qeyd edir ki, nikah müqaviləsi xarakterinə görə şəxsən bağlana bilən əqd, həmçinin bu əqdin qanuni nümayəndənin razılığı ilə bağlanması onun mahiyyətinə zidd olduğu üçün, 14 yaşından 18 yaşınadək olan yetkinlik yetkinlik yaşına çatmayanlar AR Mülki Məcəlləsinin 30.1-ci maddəsini rəhbər tutaraq qanuni nümayəndələrinin yazılı razılığı ilə nikah müqaviləsi bağlamağı arzu etdikdə, notarius müqaviləni təsdiqləməkdən imtina etməlidir. Notarius həmçinin AR Ailə Məcəlləsinin 12-ci maddəsi ilə nikahın bağlanmasına yol verilməyən şəxslər arasında nikah müqaviləsini təsdiqləməkdən imtina etməlidir.

İddiaçı göstərir ki, nikah yaşının azaldılması haqqında yerli icra hakimiyyəti orqanının icazəsi olsa belə, on səkkiz yaşına çatmamış fiziki şəxs nikah bağlanmasının dövlət qeydiyyatına qədər nikah müqaviləsini notariat qaydasında rəsmiləşdirə bilməz. Notarius belə şəxslər arasında nikah müqaviləsini yalnız nikah bağlanmasının dövlət qeydiyyatına alınması haqqında şəhadətnamə təqdim edildikdən sonra təsdiq edə bilər.

On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan AR Mülki Məcəlləsinin 28.4-cü maddəsinin tələblərinə uyğun olaraq tam fəaliyyət qabiliyyətli sayılsa da (emansipasiya), o, AR Ailə Məcəlləsinin 10.1-ci maddəsinə əsasən nikah yaşına çatmadığı üçün nikah müqaviləsi bağlaya bilməz. Yəni, emansipasiya nikah bağlanmasına əsas vermədiyi üçün, nikah müqaviləsinin bağlanmasına da əsas ola bilməz. Əlbəttə, emansipasiya olmuş 17 yaşlı şəxsin AR Ailə Məcəlləsinin 10.2-ci maddəsinə müvafiq olaraq yerli icra hakimiyyəti orqanının razılığı ilə nikah yaşının azaldılaraq, onun nikahının dövlət qeydiyyatına alınması halları istisnadır. Bu halda, nikah müqaviləsi bağlamaq imkanı emansipasiya səbəbindən deyil, nikah yaşının azaldılması nəticəsində yaranacaq.

Müəllifin fikrincə, nikah müqaviləsi təsdiq edildikdən sonra kreditorların və digər maraqlı şəxslərin mənafeyinin müdafiəsi məqsədilə, onun dövlət orqanında qeydiyyata alınması, bunun üçün müvafiq dövlət orqanında elektron məlumat bazasının yaradılması müsbət hal olardı. Elektron məlumat bazasının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində yaradılması məqsədəuyğun sayılır və təklif edilir ki, "Notariat haqqında" AR Qanununun 32-ci

maddəsinin 10, 11 və 12 hissələri müvafiq olaraq 11, 12 və 13-cü hissələr hesab edilərək, həmin maddəyə aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin: "Notarius nikah müqaviləsini təsdiqlədikdən sonra texniki vasitələrdən istifadə etməklə müqavilənin təsdiq edilməsi barədə məlumatı dərhal müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə) göndərir. Müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) nikah müqaviləsinin məzmunundan asılı olaraq, texniki vasitələrdən istifadə etməklə məlumatı üç gün müddətində müvafiq orqanlara (Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün notariat kontorlarına, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə və Azərbaycan Respublikasının Mərkəzi Bankına) göndərir".

İkinci yarımfəsildə **"Ər-arvadın ümumi əmlakındakı paya notariat qaydasında mülkiyyət hüququ haqqında şəhadətnamənin verilməsinin xüsusiyyətləri"** təhlil edilir. Tədqiqat işində qeyd olunur ki, "Notariat haqqında" AR Qanununun 61-ci maddəsinin I hissəsinə müvafiq olaraq notarius ər-arvadın birgə yazılı ərizəsi əsasında onların birinə və ya hər ikisinə birgə nikah dövründə əldə edilmiş ümumi əmlakdakı paya görə mülkiyyət hüququ haqqında şəhadətnamə verir. Analoji norma həmçinin 27 dekabr 1973-cü ildə qəbul edilmiş və 1 iyul 1974-cü ildən 30 yanvar 2000-ci ilə kimi qüvvədə olmuş "Dövlət notariatı haqqında" Azərbaycan SSR Qanununun 52-ci maddəsinin I hissəsində öz əksini tapmışdı. 27 dekabr 1973-cü il tarixli Qanuna uyğun olaraq Azərbaycan SSR Ədliyyə Nazirliyinin 30 may 1975-ci il tarixdə qəbul etdiyi "Azərbaycan SSR-in dövlət notariat kontorları tərəfindən notariat əməliyyatları aparılması qaydası haqqında" Təlimatın ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamə verilməsi qaydalarını nizama salan 107-112-ci bəndləri yalnız ər-arvadın nikah dövründə birgə ərizəsinə əsasən və ər-arvaddan biri öldükdə sağ qalmış ərə (arvada) mirası qəbul etmiş vərəsələrə bildiriş göndərməklə şəhadətnamənin verilməsini nəzərdə tuturdu. Nikah pozulduqdan sonra ər-arvadın birgə ərizəsinə əsasən şəhadətnamənin verilməsi nəzərdə tutulmamışdı. 6 iyun 1989-cu ildə Azərbaycan SSR Ədliyyə Nazirliyi "Azərbaycan SSR-in dövlət notariat kontorları tərəfindən notariat əməliyyatlarının aparılması qaydaları haqqında" yeni Təlimat qəbul etmişdir. 27 dekabr 1973-cü ildə qəbul

edilmiş Qanunda və 30 may 1975-ci il tarixli Təlimatda nəzərdə tutulmasa da, yeni Təlimatın 108-ci bəndində ilk dəfə olaraq nikah pozulduqdan sonra keçmiş ər-arvadın birgə nikah dövründə əldə edilmiş ümumi əmlakdakı paya notariat qaydasında şəhadətnamənin verilməsinin mümkünlüyü öz əksini tapmışdır. 6 iyun 1989-cu il tarixdən etibarən dövlət notariusları nikahı pozulmuş ər-arvadın birgə müraciəti olduqda, onların birgə nikah dövründə əldə etdikləri əmlaka şəhadətnamə verməyə başladılar. Lakin, əvvəlki Qanundan fərqli olaraq hal-hazırda qüvvədə olan "Notariat haqqında" AR Qanununun 61-ci maddəsinin II hissəsinə görə şəhadətnamə ər-arvadın hər birinə həm nikahda olarkən, həm də nikah pozulduqdan sonra verilə bilər. İddiaçı ər-arvadın nikahı pozulduqdan sonra onların birgə nikah dövründə əldə edilmiş ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamənin verilməsinin mümkünlüyünü təlimatda deyil, qanunda öz əksini tapmasını müsbət hal sayır.

Müəllif həmçinin qeyd edir ki, ər-arvadın ümumi əmlakının bölünməsi haqqında sazişin notariat qaydada təsdiqinin məcburiliyi qanunvericiliklə müəyyənləşməmişdir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.2-ci maddəsində belə sazişin yalnız tərəflərin arzusu ilə notariat qaydada təsdiqinin mümkünlüyü təsbit olunmuşdur. Hətta, ər-arvadın ümumi əmlakının bölünməsi barədə sazişin yazılı formada bağlanmasının məcburiliyi də qanunvericilikdə öz əksini tapmamışdır. Düşünmək olar ki, mübahisə olmadıqda bu cür saziş şifahi formada bağlana bilər. Tədqiqatçının fikrincə, ər-arvadın ümumi əmlakının bölünməsi barədə saziş yazılı formada bağlanaraq notariat qaydasında təsdiqlənməlidir və bu müddəanın imperativ qaydada Ailə Məcəlləsinin 36.2-ci maddəsində öz əksini tapması məqsədəmüvafiq olardı.

İddiaçı notariat təcrübəsini təhlil edərək göstərir ki, təcrübədə ər-arvadın biri öldükdən sonra vərəsəlik məsələləri həll edilərkən "Notariat haqqında" AR Qanununun 62-ci maddəsinin 1-ci hissəsi rəhbər tutularaq, ər-arvadın ümumi əmlakındakı paya sağ qalmış ərin (arvadın) ərizəsinə əsasən əmlakın ½ (ikidə bir) hissəsinə mülkiyyət hüququ haqqında şəhadətnamə, digər ½ hissəyə isə vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsi ilə bağlı notariat hərəkətlərinin aparılması geniş yayılmışdır. Notariat təcrübəsində ər-arvadın sağlığında ər-arvadın hər birinə həm nikahda olarkən, həm də nikah pozulduqdan sonra şəhadətnamə verilməsinə nadir hallarda rast gəlinir. Ailə Məcəlləsində ər-arvad arasında nikah müqaviləsinin bağlanması və ər-arvadın ümumi əmlakının onların sazişi əsasında bölünə bilməsinin

mümkünlüyü nəzərdə tutulduğu üçün, ər-arvadın sağlığında nikah dövründə əldə edilmiş ümumi əmlakdakı paya görə notariat qaydasında mülkiyyət hüququ haqqında şəhadətnamə verilməsinin ləğv edilməsi, yalnız sağ qalmış ərə (arvada) mülkiyyət hüququ haqqında şəhadətnamə verilməsinin qanunvericilikdə öz əksini tapması barədə hüquq ədəbiyyatında irəli sürülən fikirlər haqlı sayılaraq "Notariat haqqında" AR Qanununun "Birgə ərizə əsasında şəhadətnamənin verilməsi" adlanan 61-ci maddəsinin ləğv olunması və "Notariat haqqında" Qanunun "Ər-arvadın biri öldükdə şəhadətnamənin verilməsi" adlı 62-ci maddəsinə aşağıdakı məzmunda dördüncü və beşinci hissələrin əlavə edilməsi təklif edilir:

62-ci maddənin 4-cü hissəsi: "Ümumi əmlakdakı paya vərəsəlik hüququ haqqında şəhadətnamə almaq üçün müraciət etmiş sağ qalmış ər (arvad) nikah müqaviləsinin olmaması barədə arayış təqdim etməlidir".

62-ci maddənin 5-ci hissəsi: "Yaşayış evinə, mənzilə, bağa, bağ evinə, qaraja, torpaq sahəsinə və digər daşınmaz əmlaka mülkiyyət hüququ haqqına şəhadətnaməni yalnız əmlakın olduğu yerin notariusu verə bilər".

Üçüncü yarımfəsildə "**Alimentin ödənilməsi barədə sazişin notariat qaydasında təsdiq edilməsi"** araşdırılır. Müəllif qeyd edir ki, Azərbaycan Respublikasının yeni Ailə Məcəlləsində ilk dəfə olaraq alimentin ödənilməsi barədə sazişin notariat qaydasında təsdiq edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur. İcra vərəqəsi qüvvəsinə malik olan alimentin ödənilməsi barədə saziş, yalnız Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13-15-ci fəsillərində və Mülki Məcəllənin 1161-ci maddəsində göstərilən aliment ödəmək vəzifəsi daşıyan şəxslə məhkəmə qaydasında alimentin tutulmasını tələb etmək hüququna malik şəxs arasında bağlana bilər. Ona görə də belə sazişin bağlanması üçün tərəflər notariat kontoruna müraciət etdikdə, notarius tərəflərin Ailə Məcəlləsinin 13-15-ci fəsillərində və Mülki Məcəllənin 1161-ci maddəsində göstərilən subyektlərə aid olub-olmamasını müəyyən etməlidir. Tərəflər Ailə Məcəlləsinin 13-15-ci fəsillərində və Mülki Məcəllənin 1161-ci maddəsində göstərilən aliment hüquq münasibətlərinin subyektləri olmadıqda, notarius tərəflərin AR Mülki Məcəlləsinin 390-cı maddəsinə əsasən müqavilə bağlamaq hüququnu izah etməlidir, əgər tərəflər belə müqaviləni alimentin ödənilməsi barədə saziş adlandırmaq istədikdə, əqdin məzmunu qanunun tələblərinə uyğun olmadıgı üçün notarius "Notariat haqqında" AR

Qanununun 40-ci maddəsinin 5-ci hissəsini rəhbər tutaraq notariat hərəkətini aparmaqdan imtina etməlidir.

Tədqiqatçının fikrincə, AR Ailə Məcəlləsinin 90-cı maddəsi qüsurlu olduğu üçün həmin maddənin dəyişdirilərək aşağıdakı redaksiyada verilməsi məqsədəuyğun olardı: "Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan baba və nənə saxlanmaq üçün yetkinlik yaşına çatmış övladlarından və ya ərindən (arvadından) maddi yardım ala bilmədikdə, zəruri vəsaitə malik yetkinlik yaşına çatmış nəvələrdən məhkəmə qaydasında aliment verilməsini tələb etmək hüququna malikdirlər".

Qanunvericilik təhlil edilərək belə nəticəyə gəlinir ki, alimentin ödənilməsi barədə sazişin bağlanması üçün notariat kontoruna müraciət olunduqda, notarius tərəfindən aliment ödəmək vəzifəsi daşıyanın iş yerindən əmək haqqının miqdarı haqqında arayış tələb olunmalıdır və Ailə Məcəlləsinin 76-cı maddəsində göstərilən miqdardan az alimentin ödənilməsi barədə saziş təsdiqlənməməlidir. Tərəflər Ailə Məcəlləsinin 76-cı maddəsində göstəriləndən çox miqdarda alimentin ödənilməsi barədə saziş bağlamaq istədikdə notarius belə sazişi təsdiq etməlidir.

Uşaqların minimum təminat xərclərinin hər il üçün Milli Məclis tərəfindən qəbul edilən "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunduğu göstərilir və uşaqların alimentlə bağlı hüquqlarının qorunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə aşağıdakı məzmunda 78.4-cü maddənin əlavə edilməsi məqsədəuyğun sayılır: "Sabit pul məbləğinin miqdarı hər uşaq üçün "Azərbaycan Respublikasında yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə uşaqlar üçün müəyyən edilmiş minimum məbləğdən az müəyyən edilə bilməz".

İddiaçı göstərir ki, alimentin ödənilməsi barədə saziş qiymətləndirilən müqavilə olduğu üçün keçmiş ər-arvad arasında, yetirmələrlə faktik tərbiyəçilər arasında, ögey oğul və qızlarla ögey ata və ana arasında, həmçinin vərəsələrlə miras qoyanın himayəsində olmuş və özlərini müstəqil saxlaya bilməyən əmək qabiliyyəti olmayan şəxslər arasında belə sazişin notariat qaydasında təsdiqi zamanı 80 manat dövlət rüsumu, habelə 12 manat notariat hərəkətləri ilə əlaqədar göstərilən xudmətə görə haqq – ümumilikdə 92 manat tutulur. Müəllifin fikrincə, bu məbləğ alimentin ödənilməsi barədə saziş üçün çoxdur. Hesab edilir ki, "Dövlət rüsumu haqqında" 4 dekabr 2001-ci il tarixli

Azərbaycan Respublikasının Qanununa aşağıdakı məzmunda 10.7.4-cü maddənin ələvə edilməsi məqsədəmüvafiq olardı: "Alimentin ödənilməsi barədə sazişin təsdiqi üçün 10 manat dövlət rüsumu tutulur".

Dördüncü fəsil - **"Notariat təcrübəsində vərəsəlik məsələlərinin tətbiqi problemləri"** 3 yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **"Vərəsəlik hüququnun ümumi xarakteristikası"** MDB və bəzi Avropa ölkələrinin vərəsəlik münasibətlərini nizama salan qanunvericiliklərinin müqayisəli təhlili kontekstində tədqiq edilir. Qeyd olunur ki, hal-hazırda bütün MDB ölkələrində, həmçinin Avstriyada, Almaniyada, Fransada, Macarıstanda, İspaniyada, İtaliyada, Polşada, Çexiyada və İsveçrədə vərəsəliklə bağlı normalar həmin ölkələrin Mülki Məcəllələrində öz əksini tapmışdır. Bolqarıstan, Serbiya, Çernoqoriya, Xorvatiya və Estoniyada isə vərəsəlik hüquq münasibətləri "Vərəsəlik haqqında" xüsusi qanunla tənzimlənir.

Tədqiqatçı MDB-yə daxil olan ölkələrin vərəsəlik qanunvericiliyini müqayisə edərək göstərir ki, yalnız Ukraynanın Mülki Məcəlləsində vərəsəlik müqaviləsi bağlanmasının mümkünlüyü təsbit olunmuşdur. Ukraynanın vərəsəlik müqaviləsi hüquqi təbiətinə görə renta müqaviləsinə oxşayır, amma vərəsəlik müqaviləsində əldə edənin əmlaka mülkiyyət hüququ özgəninkiləşdirənin öldüyü andan əmələ gəldiyi halda, daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsində renta ödəyicisinin həmin əmlaka mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan yaranır. Əvəzli əqd olan vərəsəlik müqaviləsi ilə əmələ gələn öhdəliklərin məzmunu vərəsəlik açılana kimi və ya açıldıqdan sonra əldə edənin miras qoyanın xeyrinə əmlak və ya şəxsi qeyri-əmlak xarakterli hərəkətlər etməsi ilə səciyyələnir. Vəsiyyət üzrə vərəsəlikdə olduğu kimi vərəsəlik müqaviləsində məcburi paya malik vərəsələrin hüquqları onların müqavilədə iştirakı ilə qorunur. Əgər məcburi paya malik vərəsələr vərəsəlik müqaviləsi bağlanarkən məcburi paya olan hüquqlarından imtina etməmişlərsə, onlar həm miras qoyanın sağlığında, həm də onun ölümündən sonra həmin müqaviləni mübahisələndirə bilərlər. Vərəsəlik müqaviləsinin vəsiyyətnamədən əsas fərqi ondan ibarətdir ki, bu müqavilə birtərəfli qaydada ləğv edilə bilməz. İddiaçının fikrincə, vərəsəlik müqaviləsi həm miras qoyanın, həm də əmlakı əldə edənin maraqlarını realizə edə bilər, bu səbəbdən Azərbaycan Respublikasının Mülki Məcəlləsinə "Vərəsəlik müqaviləsi" adlı 75-ci fəslin əlavə edilməsi məqsədəuyğun olardı. "Vərəsəlik

müqaviləsi" adlandırılması təklif olunan AR Mülki Məcəlləsinin 75-ci fəslində öz əksini tapacaq 1326-1332-ci maddələr hazırlanarkən Almaniya, Avstriya, İsveçrə və Ukrayna Mülki Məcəllələrinin vərəsəlik müqaviləsini tənzimləyən normalarından istifadə olunması məqsəmüvafiq hesab edilir.

İkinci yarımfəsildə **"Notariat qaydasında vəsiyyətnamə təsdiqi və vəsiyyət üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsinin təcrübi məsələləri**" təhlil edilir. Fiziki şəxsin ölməsi halı üçün öz əmlakını və ya onun bir hissəsini yalnız konkret fiziki şəxsin və ya şəxslərin adını, soyadını və atasının adını, həmçinin hüquqi şəxsin adını dəqiq göstərməklə vəsiyyət edə bilməsini gələcəkdə vərəsələr arasında yarana biləcək mübahisələrin qarşısının alınması baxımından məqsədəuyğun sayan müəllif AR Mülki Məcəlləsinin 1166-cı maddəsinə aşağıdakı məzmunda ikinci hissənin əlavə olunmasını təklif edir: "Əmlak fiziki şəxsə vəsiyyət edildikdə, fiziki şəxsin adı, soyadı və atasının adı, hüquqi şəxsə vəsiyyət edildikdə isə hüquqi şəxsin adı vəsiyyətnamədə göstərilməlidir".

İddiaçının fikrincə, gələcəkdə vərəsələr arasında yarana biləcək məhkəmə mübahisələrinin qarşısını almaq məqsədilə, AR Mülki Məcəlləsinin 1179.1-ci maddəsinin dəyişdirilərək "vəsiyyətnamə yazılı formada tərtib edilməli və notariat qaydasında təsdiqlənməlidir" kimi verilməsi, həmçinin Mülki Məcəllənin "Ev vəsiyyətnaməsi" adlanan 1186-cı və "Vəsiyyətnamənin depozitə qoyulması" adlı 1187-ci maddələrinin ləğv olunması məqsədəmüvafiq olardı.

Vəsiyyətnamə təsdiqlənərkən notariusa bərabər tutulan şəxslərin dairəsini araşdıran tədqiqatçı hesab edir ki, AR Mülki Məcəlləsinin 1181.1 və 1181.5-ci maddələrinin ləğv olunaraq, 1181.2, 1181.3 və 1181.4-cü maddələrinin müvafiq surətdə 1181.1, 1181.2 və 1181.3-cü maddələr hesab edilməsi məqsədəuyğun olardı. Çünki Mülki Məcəllənin 1181.1 və 1181.5-ci maddələrində göstərilən müalicə müəssisələrində müalicə olunan və ya yaşayan, habelə azadlıqdan məhrumetmə yerində cəza çəkən şəxs vəsiyyət etmək arzusunda olsa, müalicə müəssisəsinin və ya azadlıqdan məhrumetmə yerinin yaxınlığında fəaliyyət göstərən notariat kontorunun notariusu müvafiq müalicə müəssisəsinə, yaxud azadlıqdan məhrumetmə yerinə gələrək kontordan kənar notariat hərəkətını apara bilər.

Notariat təcrübəsi təhlil edilərək nəzərə çatdırılır ki, notarius tərəfindən təsdiq edilmiş vəsiyyətnamələrdə vəsiyyət edənin vəsiyyət

etdikdən sonra həmişə vəsiyyətnaməni dəyişdirə və ya ləğv edə bilməsi hüququ, həmçinin Mülki Məcəllənin 1193-cü maddəsində göstərilən şəxslərin vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi paylarının olması, habelə Mülki Məcəllənin 1161-ci maddəsinə uyğun olaraq miras qoyanın himayəsində olmuş və özlərini müstəqil saxlaya bilməyən əmək qabiliyyəti olmayan şəxslərin mirasdan dolanacaq təminatı (alimentlər) tələb edə bilməsi öz əksini tapmır. Müəllifin fikrincə, vəsiyyət edənin digər şəxslərə münasibətdə hüquq və vəzifələrini daha yaxşı bilməsi üçün AR Mülki Məcəlləsinin 1161-ci, 1193-cü və 1220-ci maddələrinin məzmununun notariat qaydasında təsdiq edilən vəsiyyətnamədə əks olunması və bu qaydanın "Notariat haqqında" AR Qanununun 47-ci maddəsinə 4-cü hissə kimi əlavə edilməsi məqsədəmüvafiq olardı.

Tədqiqatçı qeyd edir ki, miras qoyanın ölümündən sonra vəsiyyətnamənin tapılması, ö cümlədən xarici ölkələrdə təsdiq olunmuş vəsiyyətnamənin tapılmasını asanlaşdırmaq məqsədilə, 16 may 1972-ci il tarixdə Avropa Şurasına üzv olan dövlətlər "Vəsiyyətnamələrin qeydiyyat sisteminin tətbiqi haqqında" Bazel Konvensiyasını imzalamışlar. Konvensiyaya görə bu sənədi imzalayan dövlətlər vəsiyyətnamələrin qeydiyyat sistemini yaratmaq öhdəliyi götürərək, bunun üçün vahid orqan və ya bir neçə orqan təyin edirlər. Konvensiyaya qoşulan dövlətlərin qanunvericiliyinə əsasən notarius və ya vəsiyyətnaməni təsdiq etmək səlahiyyətinə malik digər şəxslər tərəfindən təsdiqlənmiş vəsiyyətnamələr qeydiyyata alınır və vəsiyyət edənin ölümündən sonra ölüm haqqında şəhadətnamə və ya ölümü təsdiq edən digər sənəd təqdim edən istənilən şəxsə vəsiyyətnamənin məzmunu haqqında məlumat verilir.

"Vəsiyyətnamələrin qeydiyyat sisteminin tətbiqi haqqında" 16 may 1972-ci il tarixli Bazel Konvensiyasına Azərbaycan Respublikasının qoşulması, Konvensiyaya qoşulduqdan sonra Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin milli orqan kimi müəyyən olunması məqsədəuyğun sayılır. Belə olarsa, notarius və notariusa bərabər tutulan şəxslər tərəfindən təsdiqlənən bütün vəsiyyətnamələr Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyata alınar.

Iddiaçının fikrincə, miras qoyanın yetkinlik yaşına çatmış əmək qabiliyyəti olan uşaqlarının, həmçinin əmək qabiliyyəti olan ərinin (arvadının) və valideynlərinin mirasda məcburi paya malik olmaları sağlam məntiqə sığmır. Məcburi payın həcminə gəldikdə isə, hesab

edilir ki, Qırğızıstan və Tacikistanın qanunvericiliyində düzgün olaraq bu pay qanun üzrə vərəsəlik zamanı çatası payın (məcburi payın) üçdə iki hissəsindən az olmayan hissə kimi öz əksini tapmışdır. Müəllif AR Mülki Məcəlləsinin 1193-cü maddəsinin dəyişdirilərək aşağıdakı redaksiyada verilməsini təklif edir: "Miras qoyanın yetkinlik yaşına çatmayan və ya əmək qabiliyyəti olmayan uşaqlarının, əmək qabiliyyəti olmayan ərinin (arvadının) və valideynlərinin vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın üçdə iki hissəsindən az olmayan hissəni (məcburi pay) təşkil etməlidir".

Üçüncü yarımfəsildə **"Mirasın qəbulu, ondan imtina və notariat qaydasında qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsinin xüsusiyyətləri"** araşdırılır. Tədqiqatçı göstərir ki, Azərbaycan Respublikası və Türkmənistanda vərəsəliyin qəbulu və vərəsəliyin qəbulundan imtina müddəti 3 ay, digər MDB ölkələrində isə 6 aydır. İddiaçının fikrincə, Azərbaycan Respublikasının Mülki Məcəlləsində vərəsəliyin qəbulu və vərəsəlikdən imtina müddətinin altı ay müəyyən edilməsi vərəsələrin hüquq və vəzifələrinin həyata keçirilməsi baxımından təqdirəlayiq olardı. Bu məqsədlə təklif edilir ki, AR Mülki Məcəlləsinin 1246 və 1256-cı maddələri dəyişdirilərək aşağıdakı redaksiyada verilsin:

1246-cı maddə: "Vərəsə vərəsəlik açıldığı gündən altı ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir".

1256-cı maddə: "Vərəsə vərəsəlik açıldığı gündən altı ay ərzində mirasın qəbulundan imtina edə bilər. Üzürlü səbəb olduqda məhkəmə bu müddəti iki aydan çox olmayaraq uzada bilər".

Müəllif notariusların apardıqları notariat hərəkətlərinin mübahisəsiz işlər olduğunu nəzərə alaraq, daşınmaz əmlakın özgəninkiləşdirilməsinə qadağan və ya bu əmlak üzərində həbs olduğu halda, həmin əmlaka, ümumiyyətlə üzərinə qadağan və ya həbs qoyulmuş hər hansı digər əmlaka vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsini kreditor və digər maraqlı şəxslərlə vərəsələr arasında yarana biləcək məhkəmə mübahisələri riskinin yüksək olması nöqteyi-nəzərindən məqbul hesab etmir. İddiaçının fikrincə, "Notariat haqqında" AR Qanununun "Vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilmə qaydası" adlanan 58-ci maddəsinin 3-cü və 4-cü hissələrinin müvafiq surətdə 5-ci və 6-ci hissələr hesab edilərək, həmin maddəyə aşağıdakı

məzmunda 3-cü və 4-cü hissələrin əlavə edilməsi məqsədəmüvafiq olardı.

58-ci maddənin 3-cü hissəsi: “Miras əmlakın tərkibində daşınmaz əmlak olduqda, notarius daşınmaz əmlakın miras qoyana məxsus olması haqqında hüquqmüəyyənedici sənəd, daşınmaz əmlakın özgəninkiləşdirilməsinə qadağanın və ya bu əmlak üzərində həbsin olub-olmaması barədə arayış tələb edir.

58-ci maddənin 4-cü hissəsi: “Üzərinə qadağan və ya həbs qoyulmuş əmlaka vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsi qadağan və ya həbs götürülənədək dayandırılır”.

AR Mülki Məcəlləsinin 1322-ci maddəsi təhlil edilərək belə nəticəyə gəlinir ki, vərəsəlik şəhadətnaməsinin altı aydan tez verilməsi məqsədəuyğun deyil, ona görə ki, şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə notariuslarda 100 faizlik düzgün məlumatın ola bilməsi qeyri-mümkündür. Təklif edilir ki, AR Mülki Məcəlləsinin 1322-ci maddəsi dəyişdirilərək aşağıdakı redaksiyada verilsin: “Vərəsəlik hüququ haqqında şəhadətnamə vərəsələrə mirasın açıldığı gündən altı ay keçdikdən sonra istənilən vaxt verilir”.

Tədqiqatçı qeyd edir ki, miras qoyanın ölüm tarixi vərəsəlik məsələlərinin həllində mühüm əhəmiyyətə malikdir. Həm vəsiyyət üzrə, həm də qanun üzrə vərəsəlikdə miras qoyanın ölüm tarixi 1 mart 1965-ci ildən 1 sentyabr 2000-ci ilə kimi olan dövrə təsadüf etdikdə, vərəsəlik məsələləri Azərbaycan SSR-in 1964-cü il Mülki Məcəlləsi əsasında, 1 sentyabr 2000-ci ildən sonraya təsadüf etdikdə isə yeni Mülki Məcəllənin normaları rəhbər tutularaq həll edilməlidir.

Beşinci fəsil **“Notariusun məsuliyyəti problemləri”** adlanır. Müəllif göstərir ki, “Notariat haqqında” AR Qanununun 11-ci maddəsində, 32-ci maddəsinin 10-cu hissəsində, AR Mülki Məcəlləsinin 144.1-ci maddəsində və Azərbaycan Respublikası Ədliyyə Nazirinin 2006-cı il 29 aprel tarixli 6-T nömrəli əmri ilə təsdiq edilmiş “Notariusun etik davranış” Kodeksinin 8-ci bəndində notariusun məsuliyyətini müəyyən edən normalar öz əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsinin ikinci hissəsində, Mülki Məcəllənin 1100-ci maddəsində, İnzibati Xətalar Məcəlləsinin 248-cı maddəsində, habelə Əmək Məcəlləsinin 186-cı və 199-cu maddələrində notariusun adı birbaşa göstərilməsə də, qeyd olunan maddələrin məzmunu dövlət notariusuna da şamil edilir. Xüsusi notariusa isə İnzibati Xətalar Məcəlləsinin 246-cı və 248-cı maddələri, həmçinin Əmək Məcəlləsinin 186-cı maddəsi aiddir. “Notariat

haqqında" AR Qanununun 11-ci maddəsi notariusun qanunsuz hərəkətləri nəticəsində vurulmuş maddi ziyana görə notariusun yalnız maddi məsuliyyət daşımasını bildirirsə, Mülki Məcəllənin 144.1-ci maddəsində notariusun daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında təsdiqlədiyi müqavilənin yanlışlığı üçün məsuliyyət daşıması təsbit olunmuşdur. Yəni bu maddədə məsuliyyətin növü öz əksini tapmamışdır. "Məsuliyyət" anlayışı "maddi məsuliyyət"lə müqayisədə daha geniş olduğu üçün Mülki Məcəllənin 144.1-ci maddəsində törədilən hüquq pozuntusunun xarakterindən asılı olaraq həm maddi, həm mülki, həm intizam, həm inzibati, həm də cinayət məsuliyyəti nəzərdə tutulur.

İddiaçı notariat və məhkəmə təcrübəsini araşdıraraq qeyd edir ki, notariuslar arasında intizam və cinayət məsuliyyətinə cəlb edilənlər vardır, amma notariusun qanunsuz hərəkətləri nəticəsində ayrı-ayrı şəxslərə zərər dəyməsi faktlarının olmasına baxmayaraq, məhkəmələr bir dəfə də olsun xüsusi notariusun maddi məsuliyyətə cəlb edilməsi barədə, həmçinin dövlət notariusunun qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində fiziki və hüquqi şəxsə vurulmuş zərərin əvəzinin Mülki Məcəllənin 1100-cu maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasının ödəməsi haqqında qərar çıxarmamışlar. Habelə notariuslar arasında dövlət rüsumunun düzgün tutulmaması və ya dövlət büdcəsinə vaxtında və tam ödənilməməsi halları olsa da, notariuslar heç vaxt Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən İnzibati Xətalar Məcəlləsinin 248-ci maddəsinə əsasən inzibati məsuliyyətə cəlb edilməmişlər. Hesab edilir ki, gələcəkdə yarana biləcək hər hansı mübahisələr zamanı notariusun məsuliyyət daşıyıb-daşımadığını dəqiq müəyyən etmək məqsədilə, notariusun iş otağında aparılan bütün notariat hərəkətlərinin prosedurunun fasiləsiz olaraq videokamera vasitəsilə qeydiyyata alınması və elektron daşıyıcılara yazılmış videogörüntülərin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində daim saxlanılması məqsədəuyğun olardı. Videogörüntülər vasitəsilə notariusun aşağıdakılara necə riayət etməsini aydınlaşdırmaq olar:

- notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxslərlə əxlaq normalarını və etik davranış qaydalarını gözləməklə ünsiyyət;
- onlara hüquq və vəzifələrini izah etmək;
- obyektiv və qərəzsiz məsləhətlər vermək;

- hüquqi məlumatsızlığın onlara vura biləcəyi zərərin qarşısını almaq üçün notariat hərəkətlərinin aparılması nəticələri barədə onlara xəbərdarlıq etmək.

Bu məqsədlə təklif olunur ki, "Notariat haqqında" AR Qanununun 14-cü maddəsinə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin: "Notariusun iş otağında və ya kontordan kənarda aparılan bütün notariat hərəkətlərinin proseduru videokamera vasitəsilə qeydiyyata alınır və elektron daşıyıcılara yazılmış videogörüntülər daimi saxlanmaq üçün müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə) verilir. Kontordan kənarda aparılan notariat hərəkətlərinin prosedurunun videokamera vasitəsilə çəkilməsi və videogörüntülərin elektron daşıyıcılara yazılması xərclərini barəsində notariat hərəkəti aparılmış şəxs ödəyir".

Eyni zamanda, notariat hərəkətləri sirrinin saxlanılmasını təmin etmək üçün "Notariat haqqında" AR Qanununun 32-ci maddəsinin 3-cü və 5-ci hissələrinin dəyişdirilərək aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq sayılır:

32-ci maddənin 3-cü hissəsi: "Notariat hərəkətləri ilə bağlı sənədlər və elektron daşıyıcılara yazılmış videogörüntülər məhkəmə, istintaq və təhqiqat orqanlarının icraatında olan konkret cinayət, mülki və ya inzibati işlərlə əlaqədar bu orqanların qərarı əsasında onlara verilir".

32-ci maddənin 5-ci hissəsi: "Notariat hərəkətləri ilə bağlı sənədlərin və elektron daşıyıcılara yazılmış videogörüntülərin surətləri vəkilə onun yazılı sorğusu və orderi əsasında verilir".

Tədqiqatçının fikrincə, "Notariat haqqında" AR Qanununun 11-ci maddəsinin adı onun məzmununa uyğun gəlmir. Belə ki, bu maddə əsasında yalnız xüsusi notarius maddi məsuliyyətə cəlb oluna bilər. Məsuliyyətin - intizam, inzibati, maddi, mülki və cinayət növlərinin olmasını, notariusun yalnız maddi deyil, qanunazidd hərəkətlərindən asılı olaraq, həmçinin – intizam, inzibati, mülki və cinayət məsuliyyəti daşıdığını rəhbər tutaraq "Notariat haqqında" AR Qanununun "Notariusun maddi məsuliyyəti" adlanan 11-ci maddəsinin adının dəyişdirilərək "Notariusun məsuliyyəti" adlandırılması və həmin maddənin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir: "Notarius qanunsuz hərəkətlərinə görə qanunvericiliklə müəyyən olunmuş qaydada intizam, inzibati, maddi, mülki və cinayət məsuliyyəti daşıyır.

Dövlət notariusunun qanunsuz hərəkətləri nəticəsində fiziki və hüquqi şəxslərə vurulmuş ziyan ödənilmiş əvəz miqdarında sonradan notariusa qarşı geriyə tələb (reqres) verilməklə qanuni qüvvəyə minmiş məhkəmə aktı əsasında Azərbaycan Respublikası tərəfindən ödənilməlidir.

Xüsusi notariusun qanunsuz hərəkətləri nəticəsində fiziki və hüquqi şəxslərə vurulmuş zərər xüsusi notarius tərəfindən ödənilməlidir. Vurulmuş zərərin məbləği tərəflərin razılığı ilə və ya məhkəmə qaydasında müəyyən edilir".

**Nəticə** hissəsində tədqiqata yekun vurulur və Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan müvafiq aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər verilir.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur**:

1) Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin notariat qaydasında təsdiqlənməsi // Qanun, Bakı, 2007, № 8, s. 26-30 (məqalə)

2) Mirasda məcburi paya notariat qaydasında şəhadətnamələrin verilməsi // Hüquqi dövlət və qanun, Bakı, 2007, № 8, s. 33-36 (məqalə)

3) Notariat fəaliyyəti və mülki proses // AMEA Xəbərlər: Tarix, Fəlsəfə, Hüquq. Bakı, 2007, № 8, s. 301-305 (məqalə)

4) X-XVIII əsrlərdə Azərbaycanda mülki hüququn əsas cəhətləri və notariat hərəkətlərinin aparılması /Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 20-ci buraxılış. Bakı, Adiloğlu, 2008, s. 162-166 (məqalə)

5) Нотариальное удостоверение договора купли-продажи недвижимых вещей (на основе законодательства Азербайджанской Республики) // Юрист, Алматы, 2008, № 5, с. 79-84 (məqalə)

6) XIX əsrdə Azərbaycanda notariat // AMEA Xəbərlər: Tarix, Fəlsəfə, Hüquq. Bakı, 2008, № 9, s. 251-259 (məqalə)

7) Eramızdan əvvəl I minilliyin əvvəlindən eramızın X əsrinə qədər olan dövrlərdə Azərbaycanda notariat hərəkətlərinin aparılması // Hüquqi dövlət və qanun, Bakı, 2008, № 8, s. 43-47 (məqalə)

8) Alimentin ödənilməsi barədə saziş notariat qaydasında təsdiq edildikdə, icra vərəqəsi qüvvəsinə malik olur / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi

məqalələr məcmuəsi. 21-ci buraxılış. Bakı, Adiloğlu, 2008, s. 258-263 (məqalə)

9) XX əsrin I yarısında Azərbaycanda notariat // Qanun, Bakı, 2008, № 7, s. 92-101 (məqalə)

10) Fransada notariat // Hüquqi dövlət və qanun, Bakı, 2009, № 9, s. 19-21 (məqalə)

11) Renta müqavilələrinin notariat qaydasında təsdiqi /Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı, "İlay" MMC, 2009, № 9, s. 96-101 (məqalə)

12) Notariatın yaranması və inkişafı / "Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri" mövzusunda respublika səviyyəli elmi-praktiki konfransın materialları (29 iyun 2009). Bakı: Təknur, 2009, s. 31-35 (məqalə)

13) Hüquqi faktlar sistemində notariat hərəkətlərinin yeri // AMEA Xəbərlər: Tarix, Fəlsəfə, Hüquq. Bakı, 2009, № 12, s. 360-368 (məqalə)

14) Etibarnamələrin notariat qaydasında təsdiqi // Qanun, Bakı, 2010, № 3, s.140-148 (məqalə)

15) Notariat prosesi / Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Hüquq elminin müasir problemləri" II Beynəlxalq Konfrans. Tezislər. Bakı Dövlət Universiteti və Qafqaz Universiteti (29-30 aprel, 2010), Bakı, 2010, s. 283-285 (Tezis)

16) Ər-arvadın ümumi əmlakındakı paya notariat qaydasında mülkiyyət hüququ haqqında şəhadətnamələrin verilməsi // AMEA Xəbərlər: Tarix, Fəlsəfə, Hüquq. Bakı, 2010, № 1-2, s. 349-358 (məqalə)

17) Проблемы материальной ответственности нотариуса (на основе законодательной и судебной практики Азербайджанской Республики) // Закон и право, Москва, 2010, № 8, с. 52-56 (məqalə)

18) Azərbaycanda notariat. Bakı: Təknur, 2010, 160 s. (Monoqrafiya)

19) Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamələrin notariat qaydasında təsdiqi: nəzəri və praktik aspektlər // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu: Elmi Əsərlər, Bakı, 2010, № 2 (15) s. 222-228 (məqalə)

20) Notariat fəaliyyətinin anlayışı // AMEA Xəbərlər: Tarix, Fəlsəfə, Hüquq. Bakı, 2011, №1, s. 366-374 (məqalə)

21) Нотариат в Азербайджане в 70-90 годах XX века // Евразийский юридический журнал, Москва, 2011, № 4, с.133-137 (məqalə)

22) Notariat hüququnun tədqiqatı və tədrisi / AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda 10 may 2011-ci il tarixdə "Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: Təknur, 2011, s. 411-414 (məqalə)

23) Notariat təcrübəsində dövlət rüsumu problemi / 11-12 may 2011-ci ildə BDU-da "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda keçirilmiş 11-ci respublika elmi-praktiki konfransın materialları. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2011, s. 190-193 (məqalə)

24) Частный нотариат в Азербайджане / Международная конференция «Актуальные достижения европейской науки» 17-25 июня 2011 года, Болгария, София, с. 48-51 (məqalə)

25) Актуальные проблемы Азербайджанского нотариата // Право и политика, Москва, 2011, № 9, с. 1446-1453 (məqalə)

26) Nikah müqaviləsinin notariat qaydasında təsdiqi problemləri // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu: Elmi Əsərlər, Bakı, 2011, № 1 (16), s. 308-312 (məqalə)

27) Нотариальная форма сделок // Dirçəliş, XXI əsr, Bakı, 2011, № 158-159, с. 205-217 (məqalə)

28) Notariat fəaliyyətinin hüquqi əsasları. Bakı: Təknur, 2011, 160 s. (Monoqrafiya)

29)Предложения по совершенствованию законодательства Азербайджанской Республики, касающегося получения свидетельства на профессиональное занятие нотариальной деятельностью / II Международная научно-практическая конференция «Актуальные проблемы совершенствования законодательства и правоприменения» 23 января 2012 года. Уфа, с. 128-130 (məqalə)

30) Notariat fəaliyyəti üzrə kargüzarlıq / Hüquq elminin müasir problemləri mövzusunda II Respublika elmi-nəzəri konfransın materialları (29-30 mart). Bakı: Təhsil, 2012, s. 42-44 (məqalə)

31) Müasir Azərbaycan notariatı // Nəqliyyat hüququ, Elmi-nəzəri, təcrübi jurnal, Bakı, 2012, № 1, s. 136-143 (məqalə)

32) Нотариальная деятельность в Азербайджане // Вестник Института Законодательства Республики Казахстан, Астана, 2012, № 1 (25), с. 19-23 (məqalə)

33) Sənədlərdə imzanın həqiqiliyinin notariat qaydasında təsdiq edilməsi // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, Hümanitar elmlər seriyası. Bakı, 2012, № 33, s. 117-124 (məqalə)

34) Dövlət idarəçiliyində notariat fəaliyyətinə nəzarət / AR-nın Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 05-06 dekabr 2011-ci ildə keçirilmiş "Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları" mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və Təhsil, 2012, s. 243-246 (məqalə)

35) Sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünün notariat qaydasında təsdiq edilməsi // AR Ədliyyə Nazirliyi Məhkəmə Exspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri (elmi əsərlər məcmuəsi). Bakı, 2012, № 56, s. 138-145 (məqalə)

36) Vərəsəlik hüquq münasibətlərində notariat hərəkətlərinin rolu // AMEA Xəbərlər: Tarix, Fəlsəfə, Hüquq. Bakı, 2012, № 1, s.271-280 (məqalə)

37) О некоторых проблемах нотариального удостоверения сделок с недвижимым имуществом в Азербайджанской Республике // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов, 2012, № 10 (24) Часть 2, с. 130-132 (məqalə)

38) Notariat təcrübəsində təmsilçilik məsələləri // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu: Elmi Əsərlər, Bakı, 2012, № 1 (18), s. 255-258 (məqalə)

39) Notariat təcrübəsində alimentin ödənilməsi barədə sazişin təsdiqinin problem məsələləri // AR Ədliyyə Nazirliyi Məhkəmə Exspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri (elmi əsərlər məcmuəsi), Bakı, 2012, № 57, s. 137-144 (məqalə)

40) Vərəsəlik hüquq normalarının notariat təcrübəsində əhəmiyyəti // Nəqliyyat hüququ, Elmi-nəzəri, təcrübi jurnal, Bakı, 2012, № 4, s. 122-128 (məqalə)

41) "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 46-cı maddəsinin notariat təcrübəsində tətbiqi məsələləri / "Azərbaycanda hüquqi dövlət quruculuğu və qanunçuluq – 2020: gələcəyə baxış" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, 2012 (11-12 iyun). Bakı: Təknur, 2012, s. 133-136 (məqalə)

42) Vəsiyyətnamələrin notariat qaydasında təsdiq edilməsi // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, Hümanitar elmlər seriyası, Bakı, 2012, № 34, s. 80-84 (məqalə)

43) Notariat təcrübəsində ailə hüququ məsələləri / "Müstəqil Azərbaycan 20 il: Dövlət Ailə, Qadın və Uşaq Siyasəti" mövzusunda respublika elmi-praktiki konfransın materialları. AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. 2011, oktyabr. Bakı: Nurlar, 2012, s. 239-245 (məqalə)

44) Azərbaycanda əqdlərin təsdiqi tarixi və notariatın yaranması // Dirçəliş, XXI əsr, Bakı, 2013, № 173-174, s. 241-249 (məqalə)

45) Notariat təcrübəsində Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin tətbiqi məsələləri / "Hüquq elminin müasir problemləri" mövzusunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş III Respublika elmi-nəzəri konfransın materialları. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Bakı, 2013 (14-15 mart), s. 82-85 (məqalə)

46) Некоторые вопросы наследственного правоотношения: сравнительный анализ / Science, Technology and Higher Education. Materias of the international research and practice conference Vol.I January 30th, 2014, Westwood, Canada, Montreal, Quebec, p. 209-213 (məqalə)

47) Некоторые вопросы удостоверения завещаний в нотариальном порядке: на основе законодательства Азербайджанской Республики / IV Международная научно-практическая конференция «Актуальные проблемы совершенствования законодательства и правоприменения» 8 февраля 2014 года. Уфа, 2014, с. 277-280 (məqalə)

48) Некоторые вопросы свидетельствования подлинности подписи на документе в нотариальном порядке: на основе законодательства Азербайджанской Республики // Нотариус, 2014, № 3, с. 38-41(məqalə)

49) Certification of the copies of documents authenticity by a notary: A comparative analysis of the legislation of the Azerbaijan Republic and the Commonwealth of Independent States // Journal of Basic and Applied Scientific Research, 2014, V. 4, No 7, p. 63-68 http://textroad.com/pdf/JBASR/J.%20Basic.%20Appl.%20Sci.%20Res.,%204(7)63-68,%202014.pdf (məqalə)

## РЕЗЮМЕ

Диссертация Заура Алирза оглы Мамедова «Проблемы совершенствования нотариальных действий» на соискание ученой степени доктора наук по праву по специальности: 5608.01 – «Гражданское право; предпринимательское право; семейное право; международное частное право» посвящена проведению комплексного исследования проблем нотариата, в том числе появлению, развитию Азербайджанского нотариата, усовершенствованию совершения нотариальных действий и ответственности нотариуса.

Диссертация состоит из введения, тринадцати полглав, заключенных в пяти главах, заключения и списка использованной литературы.

Во «Введении» обосновывается актуальность диссертационной темы, освещается степень её научной изученности, определяются цели, задачи, теоретические и нормативные основы исследования, формируются основные положения, выносимые на защиту, и раскрывается научное и практическое значение работы.

Первая глава называется «Возникновение и развитие института нотариата в Азербайджане» и состоит из трех полглав. В этой главе указывается, что до вхождения Северного Азербайджана в состав России, гражданско-правовые сделки в Азербайджане заверялись казиями (религиозными судьями). В 1828 году после присоединения Северного Азербайджана к составу России правовые нормы, связанные с нотариатом, постепенно начали развиваться на базе российского законодательства. Нотариальные действия вели суды, а далее нотариусы. Наряду с нотариусами, находящимися в составе окружных судов, действовали и частные нотариусы. Первые частные нотариальные конторы в Азербайджане были открыты в 1868 году в Баку Христофором Ильичом Каноновым, в Елизаветполе Ефимом Дмитриевичем Федоровым и в Шуше Яковом Карамановичем Шахназаровым. С этих годов в Азербайджане началась новая эпоха развития нотариата, ознаменовавшаяся наряду с деятельностью государственных нотариусов, также началом деятельности частных нотариусов. В последующих годах в Баку и других городах Азербайджана открылись другие частные

нотариальные конторы. В местах, где не было нотариусов, нотариальные акты удостоверялись мировыми и сельскими судами.

Нотариальная деятельность в конце XIX и в начале XX веков в Азербайджане регулировалась принятым 14 апреля 1866 года в России «Положением о нотариальной части». Профессия нотариуса являлась почитаемой, на должность нотариуса назначались лица, которые в совершенстве владели русским языком, делопроизводство также велось в нотариальных конторах на русском языке.

С 28 мая 1918 года до 28 апреля 1920 года, то есть во времена существования Азербайджанской Демократической Республики, нотариальные акты, совершенные до 28 мая 1918 года, сохраняли свою юридическую силу, а также продолжали действовать ранее действовавшие государственные и частные нотариусы. После революции 28 апреля 1920 года, в Азербайджане правовой статус нотариата в корне изменился. Роль нотариата стала незначительной. Была приостановлена деятельность частных нотариусов. Действовали только государственные нотариусы, которые назывались народными нотариусами.

После распада СССР, 26 ноября 1999 года был принят Закон Азербайджанской Республики «О Нотариате», который вступил в силу 30 января 2000 года. В этом законе наряду с государственной нотариальной деятельностью была впервые предусмотрена и частная нотариальная деятельность.

Вторая глава - «Проблемы удостоверения сделок, копии документов, подлинности подписи в нотариальной практике» состоит из четырех полглав. В этой главе исследуются удостоверения сделок об отчуждении недвижимого имущества, вопросы представительства, свидетельствование верности копий документов и подлинности подписи на документах. Согласно ст. 647 Гражданского Кодекса Азербайджанской Республики, расходы по нотариальному удостоверению и по регистрации договора купли-продажи в государственном реестре недвижимого имущества несет покупатель. По мнению автора, наложение трат императивно на покупателя неправильно, согласование денежных трат между покупателем и продавцом было бы целесообразнее. Анализируя статью 74 Закона Азербайджанской Республики «О нотариате», соискатель предлагает изменить части 4-ю и 5-ю этой статьи и изложить их в следующей редакции:

«Для нотариального утверждения сделок по распоряжению недвижимым имуществом суммой, превышающей 20.000 (двадцать тысяч) манат, сторонам необходимо при оплате перевести денежные средства на депозитный счет, открытый нотариусом, или на банковский счет продавца.

Такие договоры утверждаются нотариусом только после предъявления квитанции о перечислении денежных средств на депозитный счет нотариуса или банковский счет продавца».

Третья глава – «Вопросы семейного права в нотариальной практике» состоит из трех полглав. В этой главе указывается, что после распада Советского Союза в принятых Семейных Кодексах всех стран входящих в состав Содружества Независимых Государств, нашли отражение новые нормы, согласно которым в нотариальном порядке можно удостоверить брачный договор и также соглашение об уплате алиментов, которое имеет силу исполнительного листа. Автор предлагает изменить статью 39.3 Семейного Кодекса и изложить ее в следующей редакции: «Брачный договор заключается в письменной форме и подлежит нотариальному удостоверению. Если условия брачного договора противоречат законодательству Азербайджанской Республики, то нотариус вправе отказать в удостоверении такого договора».

А также дополнить статьи 39.4 и 39.5 Семейного Кодекса положением следующего содержания: «Отказ нотариуса в совершении нотариального действия может быть обжалован в судебном порядке.

Запрещается заключать брачный договор через представителя сторон».

По мнению соискателя, было бы целесообразно внести в статью 36.2 Семейного Кодекса Азербайджанской Республики изменения о том, что общее имущество супругов может быть разделено по их соглашению. Такое соглашение составляется в письменной форме и удостоверяется в нотариальном порядке.

Четвертая глава - «Проблемы применения вопросов наследства в нотариальной практике» состоит из трех полглав. В этой главе анализируется общая характеристика наследственного права, практические вопросы удостоверения завещаний и выдачи свидетельства о праве наследства по завещанию, а также порядок принятия наследства, отказ от него и особенности выдачи свидетельства о праве наследства по закону. Указывается, что

доскональное изучение наследственных правовых норм имеет большое значение в нотариальной практике. Во всех странах СНГ вопросы наследственного права регулируются Гражданскими Кодексами этих стран принятых после распада Советского Союза. По мнению автора, было бы целесообразно добавить в Гражданский Кодекс Азербайджанской Республики 75-ю главу под названием «Наследственный договор» и изменить содержание статью 1257.1 ГК Азербайджанской Республики с добавлением пункта о том, что в исключительных случаях допускается частичный и условный прием наследства.

Пятая глава называется «Проблемы ответственности нотариуса». В ней указывается, что если в 11-ой статье Закона «О нотариате» АР сообщается лишь о материальной ответственности нотариуса, то статья 144.1 Гражданского Кодекса Азербайджанской Республики предусматривает ответственность нотариуса за недостоверность заверяемого договора. Очевидно, что в данной статье не прописан вид ответственности. Если учесть, что понятие «ответственность» шире понятия «материальная ответственность», то можно считать, что под понятием «ответственность» может подразумеваться как материальная, гражданская, административная, дисциплинарная, так и уголовная ответственность. Соискатель считает, что название статьи 11 Закона «О нотариате» Азербайданской Республики не соответствует ее содержанию, так как по этой статье можно привлечь к ответственности лишь частного нотариуса. Поэтому предлагается изменить название и содержание этой статьи.

Также указывается, что, несмотря на наличие фактов, ещё ни разу суды не привлекли к материальной и административной ответственности нотариуса, незаконные действия которого нанесли вред отдельным лицам.

В заключительной части диссертационной работы, подводятся итоги исследования и вносятся предложения связанные с усовершенствованием актов, входящих в законодательную систему Азербайджанской Республики.

**SUMMARY**

The Dissertation work by Zaur Alirza oglu Mammadov "Problems of improving the notarial acts" for the degree of Doctor of Science on law specialty: 5608.01 – "Civil law; proprietorship law; family law; private international law" is dedicated to a comprehensive study of problems of notaries, including the establishment and development of notaries in Azerbaijan, improvements of notarial acts and responsibilities of a notary.

The Dissertation consists of an introduction, thirteen sections concluded in five chapters, conclusion and bibliography.

"Introduction" gives the actuality of the thesis topic, highlights the degree of scientific scrutiny, identifies goals, objectives, theoretical and normative foundations of research. The main provisions of thesis and the practical importance of the work is also revealed in Introduction.

The first chapter is called "The emergence and development of notary institution in Azerbaijan" and consists of three sections. This section states that before Northern Azerbaijan included to Russia, the civil-rights deals in Azerbaijan were verified by religious judges called kazis. In 1828, following the accession of Northern Azerbaijan to Russia the legal rules relating to notaries, gradually began to develop on the basis of Russian law. Notarial acts were realized by the courts, and further by notaries. Along with notaries of the circuit court private notaries acted too. The first private notary offices were opened in Azerbaijan in 1868 in Baku by Christopher Ilich Kanonov, by Efim Dmitrievich Fedorov in Elizavetopol and by Jacob Karamanovich Shakhnazarov in Shusha. From that years a new era of notaries followed Azerbaijan which was marked not only with the activities of public notaries, as well as the beginning of activities of private notaries. In the following years other private notaries were opened in Baku and in different cities of Azerbaijan. In the places where there were no notaries, notarial acts were verified by squires and by country judges.

At the end of XIX and beginning of XX centuries notarial activity in Azerbaijan was regulated by "Regulation About Notary" adopted April 14,1866 in Russia. Profession of Notary was honorary and the person appointed to this occupation was not primarily ethnic Azerbaijani and paperwork in notary offices was conducted in Russian.

From 28 May 1918 to 28 April 1920, during the years of Azerbaijan Democratic Republic, the notarial acts committed prior to May 28, 1918, operated due previously existing law where public and private notaries

continue to act. After the revolution of April 28, 1920, in Azerbaijan, the legal status of notaries radically changed. The role of the notary has become negligible. The operation of private notaries had been suspended by the activities of public notaries.

After the collapse of the USSR, on November 26, 1999 the Law "On Notary" was approved end entered into force on 30 January 2000. This law, along with the public notary activity envisaged private notary activity.

The second chapter – "Problems of verification of transactions, copies of the documents, original signatures at the notary's practice" consists of four sections. This chapter highlights verification of transactions on the alienation of immovable property, issues of representation, the certification of true copy of original documents and original signatures on documents. According to Art. 647 of the Civil Code of the Azerbaijan Republic, the expenses of notarization and registration of contract of purchase and sale of immovable property in the state register must be done by the purchaser. The author believes that the imperative imposition of spending on buyer is wrong, alignment of spending money between buyer and seller would be more appropriate. Analyzing the Article 74 of the Law "On Notary" researcher proposes to amend parts 4 and 5 of the Act as following: "For notarial certification of real estate transaction exceeding 20.000 manat, the parties in payment must transfer money to a deposit account opened by a notary or the bank account of the seller. Such deals shall be approved by a notary public only after the presentation of the receipt of the transfer of funds to the deposit account of a notary or bank account of the seller".

The third chapter – "Family Law Issues in notarial practice" consists of three sections. This section states that after the collapse of the Soviet Union the Family Code of the countries belonging to the Commonwealth of Independent States, reflects the new rules under which the notary can certify a marriage agreement and an agreement on payment of child support, which has the force of a writ of execution. The author proposes that to make amendment to Article 39.3 of the Family Code as the following: "The marriage contract shall be signed in written form and must be notarized. If the conditions of marriage contract contrary to the legislation of the Azerbaijan Republic, the notary shall have the right not to verify such contract".

As well as to add the following conditions to the articles 39.4 and 39.5 of the Family Code: "The refusal of a notary in the notarial act may be

challenged in the courts. Entering into the marriage contract by a representative of the parties shall be forbidden".

Researcher states that, it would be advisable to make amendments to Article 36.2 of the Family Code of the AR the following: Spouses community property can be divided according to their agreement. Such agreement shall be in written form and shall be certified by a notary.

The fourth chapter – "Problems of inheritance issues in notarial practice" consists of three sections. This chapter analyzes the general characteristics of the law of succession, practical issues of certification of wills and granting of certificate on right to inheritance under the will, and the procedure of acceptance of the inheritance, the rejection of inheritance, specific issues of the granting of certificate on right to inheritance according to law. It is indicated that the detailed study of hereditary law is of great importance in the notarial practice. In all CIS countries rules of succession are governed by the civil codes of these countries adopted after the collapse of the Soviet Union. According to the author, it would be appropriate to add to the Civil Code of the Azerbaijan Republic the 75th chapter under the title "Hereditary contract" and to change the content of Article 1257.1 Civil Code of Azerbaijan with the addition of an item that in exceptional cases, partial and conditional acceptance of the inheritance shall be admissible.

The fifth chapter is "The problems of responsibility of a notary". It states that Article 11 of the Law "On Notary" Azerbaijan Republic states only material liability of the notary, but Article 144.1 of the Civil Code of the Republic of Azerbaijan provides that notary shall bear responsibility for accuracy of certified contract. Obviously, this article does not stipulate type of responsibility. If we consider that the concept of "responsibility" is broader than the term "liability", we can assume that under the concept of "responsibility" the material, civil, administrative, disciplinary or criminal liability can be meant. Researcher believes that the title of the article 11 of the Law "On Notary" Azerbaijan Republic is not correspond to its content, as according to this article only private notary may be subjected to prosecution. Therefore it is proposed to change the title and content of this article. It is indicated that despite the evidentiary facts Courts never applied material and administrative action against the notary, whose illegal actions caused harm to individuals.

The final part of the dissertation presents the findings and summarize the proposals for improvement of acts of the legislation system of the Republic of Azerbaijan.

Format 60x84 1/16. f.ç.v:3.5
AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**ЗАУР АЛИРЗА ОГЛЫ МАМЕДОВ**

# ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ НОТАРИАЛЬНЫХ ДЕЙСТВИЙ

Специальность: 5608.01 – Гражданское право; предпринимательское право; семейное право; международное частное право

**А В Т О Р Е Ф Е Р А Т**
диссертации на соискание ученой степени
доктора наук по праву

**БАКУ – 2016**